

Ramazan Qafarlı

DƏNİZLƏŞƏN DƏMİR İNSAN

# ÇİNGİZXAN

*Çingizxan – bizim içimizdə gəzdirdiyimiz və hamımıza lazım olan ruhdur.*
**Con Men**

**Dəmir, insan və dəniz!** Onları birləşdirən cəhətlər varmı? Dəmir döyülə-döyülə yumşalır, insan isə əzilə-əzilə bərkiyir, mətinləşir. Dəmir qılınclaşıb baş kəsir, oxlaşıb sinə deşir, qalxanlaşıb ağır zərbələrə tab gətirir. İnsan sözü ilə həm kəsdiyini kəsir, həm də kəlmələri nəğməyə çevirib ürəklərdə körpü salır. İnsan dəmirə aludə olduqca, yüksəlir, yüksəldikcə əşyalaşır və qana susayır. Tarixdə çoxları dəmiri özünə ad götürüb, lakin dünyada təkcə bir dəmir insan yaşayıb. Yaşadıqca Yer onun ayağının altında darlıq edib, dənizə, ümmana dönüb. Bu, Çingizxan idi.

Sovet tarixçilərinin çoxu Çingizxanı qaniçən, qəddar, təpədən dırnağa şərxisləti, qorxunc səxs kimi təqdim edir, minlərlə döyüşçünü öz arxasınca aparan, çoxmillətli Avroasiyada qüdrətli dövlət quran, onlarla xalqı bir bayraq altında birləşdirib itaətə gətirən aqil hökmdar və mahir sərkərdənin xarakterində bir müsbət cəhət göstərmirdilər. Lakin orta məktəb dərsliklərində belə ona qarşı daim qərəzli şəkildə nifrət toxumları səpilsə də, B.Yanın tendensiyalı "Çingizxan" tarixi romanı dəfələrlə milyon tirajlarla işıq üzü görüb keçmiş SSRİ məkanında ən oxunan kitablar sırasında dursa da, türk xalqları: azərbaycanlılar, qırğızlar, özbəklər, qazaxlar, türkmənlər, tatarlar, nədənsə, səkkiz əsr yarım əvvəl ölkələri moğolların od-alovuna qalanmasına, ulu babalarının Çingizxanın məğlubedilməz əsgərlərinin qılıncından keçirilməsinə, şəhərlərinin, qalalarının alınıb viran qoyulmasına baxmayaraq, övladlarına Çingizxan adını qoyurdular. Təsadüfi deyildir ki, bu gün müasir türk dünyasının ən nəhəng yazarları bu adı daşıyırlar: qırğız Çingiz Aytmatov, azərbaycanlı Çingiz Abdullayev... Türklərdə məşhur "istilaçıya" qarşı içdən gələn məhəbbətin sirri nədə idi?

Sovet imperiyasının baniləri hər cəhətdən Çingizxanı təqlid etsələr də, onun özünü tarixə ləkə kimi salmağa çalışırdılar. Böyük Fatehin əsil adı "dəmir" sözündən götürülmüşdü: ***"Temuçjin"***, yəni dəmir kimi möhkəm. Kommunistlərin rəhbəri İosif Cuquaşviliyə də bu kəlmənin daşıdığı məna yükü ləqəb verilmişdi: Stalin (rusca "stal" dəmir deməkdir). Adını fəxrlə daşısa da, Stalin nəinki ağalıq etdiyi ölkədə, həm də təsir altında saxladığı yarımmüstəmləkə sosializm yolu tutmuş dövlətlərdə, o cümlədən dünya fatehinin doğma yurdu Monqolstanda Çingizxanın unudulması üçün dəridən-qabıqdan çıxırdı. Ötən əsrin 70-ci illərində bir nəfər – Monqolstan KP MK-nin üzvü Tomor-Oçin stalinçi prezident Sedenbalı tənqid etməyə özündə cəsarət tapmışdı və Çingizxanın heykəlinin qoyulması təklifini irəli sürmüşdü. Onu millətçilikdə günahlandırıb partiyadan çıxartmış, 1985-ci ildə naməlun şəraitdə sui-qəstlə öldürmüşdülər.

Avropa və Amerikada da 140-150 il əvvəl Çingizxana rəğbət bəslənmirdi, onu sivilizasiyanın qarşısını kəsən vəhşi köçəri sayırdı. Karl Marks Qızıl Ordanı "qanlı bataqlıq" adlandırmışdı. İndi isə ağız-ağıza verib vurğulayırlar ki, az qala bütün qərblilər, hətta ruslar da "qanlı bataqlıqdan" çıxıblar, avroasiyada yaşayan xalqların hamısı Çingizxanın törəmələridirlər. Özləri təsdiqləməyə çalışırlar ki, böyük xaqanın yüzlərlə arvadı varmış, o, gecə-gündüz uşaq əkməklə məşğul imiş, harada qabağına gözəl qadın çıxırdı, yatağına aparırmış. Birdən-birə tarixin min il əvvəlki "mənfur" qəhrəmanına qarşı nifrətin "sevgi" və qan qohumluğu ilə əvəzlənməsinin səbəbi ötən çağlara aid yeni faktların üzə çıxarılması idimi? Xeyr, böyük qəsbkarla bağlı heç bir kəşf və tapıntı əldə edilməmişdi (ulu babalığı istisna edilməklə). Əslində tarixdə Çingizxanın hünərinə bərabər əməllərin başqası tərəfindən törədilmədiyi aydınlaşdıqca köhnə yalanlar puça çıxmış, onun hər addımı qibtə və heyrət doğurduğundan çalınan köhnə havanı dəyişmək zərurəti yaranmışdı. Çöllük adamının gücü, ağlı, bacarığı həddini aşıb elə dərəcəyə çatmışdı ki, minillik döyüş təcürbəsinə malik dövlətlərin böyük orduları onun sayca az olan mahir döyüşçülərinin qarşısında diz çökmüşdü. Bu qüdrəti gizlətmək, aşağılamaq mümkün deyildi, ona görə də onun varisliyini qəbul etmək ideyası meydana atılırdı.

Bəli, səbəb var ki, bu gün dünyada hamını bir sual düşündürməyə başlayıb: **Çingizxan kimdir?**

## SÜD QARDAŞLARI

**"Çingiz və sülaləsinln əlləri ilə dünya yerindən oynayıb silkələndi: sultanların tacı başlarından salındı, xəlifələr devrildi, qeysərlərin isə taxtlarında canlarına titrətmə düşdü".**

*Eduard Qibbonun "Roma imperiyasının zəifləməsi və süqutu" əsərindən*

Köçəri moğol tayfaları və ulusları türk imperiyalarının tərkibinə daxil olan Böyük Çöllükdə, dağlıq tayqanın sərhədlərində məskunlaşmışdılar. Bizim eranın başlanğıcında onlar əvvəl Böyük Hun, sonra – Şimalı Hun xaqanlıqlarına qatılmışdılar. VI-VII yüzilliklərdə Goytürk, VIII-IX yüzilliklərdə Uyğur impreriyalarının, XI əsrdə isə Kidan dövlətinin xalqları sirasında olmuşlar.

Min il ərzində moğol döyüşçüləri türk əsgərləri ilə çiyin-çiyinə verib ümumi düşmənə – Çin imperiyasına qarşı vuruşmuşdular. Əslində moğollar türklərin müttəfiqləri idilər və onların bütün hərbi yürüşlərində fəal iştirak etmişdilər. Səfərlər, uzun yol insanları istər-istəməz bir-birinə bağlayıb doğmalaşdırır. Birgə keçən güzaran nəticəsinədə hər iki xalqın adət-ənənələri, inancları ümumiləşdirilmişdi. Təsadüfi deyil ki, türklər moğolları süd qardaşları sayırdılar. Boz Qurd hər ikisinin ulu əcdadı hesab edilirdi.

Uyğur xaqanlığının süqutundan sonra uyğurlar Qaraqorumdan Çinə doğru axışdılar. Müasir Monqolstan ərazisində təkcə türk (göytürklər, hunlar, tatarlar və b.) – moğol tayfaları və ulusları qaldı.

X əsrdə Kidan imperatoru Lyao zəifləyən hakimiyyətini möhkəmlətmək məqsədilə müttəfiqlərinə sifariş göndərdi ki, yenidən Qançjoudan Qaraqoruma qayıtsınlar. Lakin uyğurlar bu təkliflə razılaşmadılar. Çünki artıq şəhər həyatına və əkinçilik şəraitinə öyrəşmişdilər. Bu çağdan moğol tayfa və ulusları müstəqillik əldə etdi.

XI-XII əsrlərə aid mənbələrdə göstərilir ki, türk və moğol dillərində danışan əhali İrtış çayının yuxarı hissəsini, Amur çayının qərbə doğru uzanan sahillərini, Böyük Hinqan sıra dağlarının ətəklərini əhatə edən geniş əraziləri tutmuşdular. Ən iri moğol ulusu tayçjiut idi, onlar Orxon və Kerulen arası tortaqlarda yaşayırdılar. Buir-Nur və Kulun-Nur gölləri yerləşən bölgə iri tatar birliyinə ▶







məxsus idi. Selengi gölünün ətrafında, Orxon, Tola, Oqniç çaylarının sahillərində qədim və çoxsaylı türk tayfası – geraitlər yurd salmışdılar. İndiki Tuva və Minusin çalası meşə tayfası oyratlara, Baykal yaxınlığı, Selengi çayının aşağısı qoçaq merkit tayfalarının üç birliyinə məxsus idi. Türk tayfası onqurlar Böyük Çin səddi boyuna, digər türk tayfası naymanlar isə Altayın ətəklərinə sığınmışdılar. Bu köçəri tayfalar arasında birlik, həmrəylik və dostluq hökm sürsə də, hərdən əkin yerlərini suvarmaq, mal-qara üçün otluq sahələr tapmaq, oturaq yerlər seçmək üstündə qarşıdurma halları da baş verirdi.

"Moğol" (monqol) sözünün mənşəyi hələ dəqiq müəyyənləşdirilməmişdir. Tarixi mənbələrdə rəsmi şəkildə ilk dəfə Çingizxanın qurduğu dövlətdən sonra bütün moğoldilli tayfaların ümumı adı kimi işlədilmişdir. XII əsrdə Şərqi Monqolstanda hakim tayfalar gah tatar, gah çin, gah da çjurçjenlər (mancurlar) olmuşdular. Sonralar, nədənsə, bölgədə yaşayan bütün tayfalara tatarlar deyilmişdir. Əslində tatarlar bir neçə qəbiləyə ayrılırdı və 70 min ev-çadırdan ibarət idilər.

F.Rəşidəddinin (1247-1318) «Cami ət – təvarix» («Ümumi tarix», yaxud «Səlnamələr toplusu») əsəri o dövrün hadisələrini özündə əks etdirən ən mötəbər mənbə hesab edilir. Tarixçi tatarları Çingizxan hakimiyyəti çağlarında moğolların ən məşhur müttəfiqləri sırasında göstərərək yazırdı: "Tatarlar çox əski çağlardan başlayaraq başqalarından güclərinə görə seçılib uzun zaman moğol tayfalarına və vilayətlərinə sahib olmuş, müttəfiqlərinə himayədarlıq etmişlər. Onlar o qədər qüdrətli idilər və ali yerlərə çatmışdılar ki, digər türk qəbilələri, adlarında və xüsusiyyətlərində fərqlər nəzərə çarpsa da, tatar adlandırılmış, bu adla şöhrət qazanmaqla qürur duymuşlar. 1115-1125-ci illərdə çjurçjenlər Ussur və Sunqur vadilərini zəbt edərək təşkilatlana bildilər, Lyaonun Kidan dövlətini darmadağın etdilər. Onlar 1120-ci ildə Pekini ələ keçirdilər. Kidanlıların bir hissəsi qaliblərə qoşuldular, yerdə qalanlar isə Çöllük şöhrətlərini itirib



döyüşlərdə məğlubiyyətə uğrayaraq Orta Asiyaya doğru geri çəkildilər. Çjurçjenlər ölkənin cənubunu tutduqdan sonra ərazi onların adı ilə Mançjutiya adlandı. Çinlə müharibə başlandı. Hərb 20 il davam etdi. Çin ən yaxşı ərazilərini – Böyük Çöllükdən Huanhe çayınadək uzanan bütün şimal hissəsini itirdi. Mançjurlar öz hakimiyyətlərini Çində təsdiqlədəndən sonra qurduqları dövlətin adını "Aysin-qurun" ("Qızıl sədd") qoydular. Həmin çağlarda Böyük Çöllükdə hakimiyyət moğollarla tatarlar arasında bölüşdürüldü. Qarşı cəbhədə isə qələbə zəfərləri qazanan çjurçjenlər gözləmə mövqeyində dururdular.

Yalnız 1129-cu ildə çjurçjenlərin ordu birləşmələri geri çəkilən kidanları izləyərək Çöllüyə doğru irəlilədilər. Moğolların hakimi Habul xan onlara müharibə elan edərək döyüşə girişdi. O, yağıların qarşısını asanlıqla aldı və çjurçjenləri məcbur etdi ki, təzədən suları süzülə-süzülə Çinə qayıtsınlar. Moğollar həm də qərbdə merkitlərlə vuruşurdular. Cənubi-şərqdə tatarların da vəziyyəti yaxşı deyildi.

Qəflətən Habul xan xəstələndi. Tatarların qam atası (baş şaman) onun yanına çağırıldı. Qam ata nə qədər səy göstərsə də, hökmdarı sağalda bilmədi. Kor-peşiman geri qayıtdı.

Habul xanın dünyasını dəyişməsi qohumlarına bərk yer elədi. Onlar qərara aldılar ki, mərhuma lazımı qaydada qulluq göstərmədiyindən qam atanı cəzalandırsınlar.

Bir dəstə moğol atlısı qam atanı yarı yolda yaxalayıb ölənədək döydü. Bu hadisə tatarlarla moğollar arasına nifaq toxumları səpri.

Habul xanın vəsiyyətinə görə, hakimiyyətə Amqabay xan gəldi. O, bir dəfə ayriud tatar tayfasına ərə verdiyi qızını yola salırdı. Buir-Nur gölü ərazisində başqa düşmən tatar tayfasının güclü dəstəsi ilə rastlasdı. Onun qoruyucuları döyüşdə oxlandılar. Xan əsir düşdü və çjurçjenlərin imperatoruna təhvil verildi.

Çin İmperatoru asan "qələbə"sinə sevinib Amqabay xani "taxta eşşəyə mıxlatdı" və qəddarcasına öldürdü.





Xəyanətə cavab olaraq 1147-ci ildə moğollar çjurçjenlərin üzərinə qoşun yeritdilər. Qanlı döyüşlər başladı və yüz ilə yaxin davam etdi. Yorucu dava-dalaş yalnız 1235-ci ildə moğolların xeyirinə başa çatdı. Bu çağadək çjurçjenlər Pekini də (1215) moğollara təslim etmişdilər. Nəticədə onlar düşmən olsalar da, igidlikləri ilə moğollara xoş təsir bağışlamışdılar, həyatlarını, azadlıqlarını və mal-dövlətlərini qoruyb saxlamaqla yanaşı, imperator ordusunda qulluq etmək hüququ qazanmışdılar. Onlar "tumen" adlanan xüsusi korpus da yaratmışdılar. Batı xanın qərbə yürüşlərində çjurçjenlərin böyük igidliklə müdafiə xəttində dayanmaları təsadüfi deyildi.

Çingizxan bu hadisələrin qovuşuğunda dünyaya gəlib yetişmiş və cahanın hökm-▶

darına çevrilmişdi.

## NURDAN DOĞULANLAR

**Temuçjinin "baxışlarından od püskürür, üzündə isə səhər şəfəqləri saçır".**

*"Gizli əhvalatlar"dan*

Böyük "istilaçı"nın atası Yesugey moğol tayfaları arasında nüfuza malik idi. Əslən zadəgan olmasa da, qorxubilməz və ədalətli cəngavər – batır idi. Həmişə haqqın müdafiəsinə qalxdığından tayfa başçılarının azğınlığından narazı qalanları maqnit kimi ətrafına çəkirdi. Onun tabeliyindəki ulusa o qədər insan toplaşmışdı ki, istədiyi zaman ordu yaradıb rəqiblərini cəzalandıra bilərdi.

Yesugeyin əcdadlarını el arasında "borcigenlər" ("yaşılgözlülər") deyə çağırırdılar.

Əfsanələrdə "borcigenlər"in mənşəyi barədə möcüzəli tarix yaşayır. Deyirlər ki, Dobun mergen bir gün Horilart mergenın qızı Alan-Qoa ilə evləndi. Alan-Qoa iki oğul doğdu. İllər keçdi. Dobun mergen dünyadan köçdü. Alan-Qoa başqa ərə getməsə də, dünyaya daha üç oğlan gətirdi. Qadın bunun səbəbini belə açıqladı:

–"Son üç övladımın atası açıqxurmayı gəncdir. O, gecə yarı alaçığın bacasından içəri girib, dan yeri söküləndə isə qeyb olub".

Məlum olur ki, dul qadın işıqdan mayalanıb, guya açıqxurmayı gəncin nuru onun bətninə düşüb və adi möcüzə baş verib. Bunu özündən uydurmaq olduqca çətin, əri öləndən sonra heç kəsi yanına buraxmayan qadının təsdiqlədiklərini qəbul etmək isə ağlabatmaz idi. Görünür, moğollar da X əsrdə Alan-Qoanın hekayəsinə şübhə ilə yanaşırdılar. Lakin illər keçəndən sonra onun törəmələri əvvəl böyük nüfuz qazandılar, nəhayət, hakimiyyəti ələ keçirdilər. Artıq əfsanə yaradanlarla mübahisə açmağın təhlükəli olduğunu hamı anladı.

Bu səbəbdən də həmin qardaşlardan törəyən nəsli "nurun"lar ("günahsız döllənənlər", yaxud "nurdan doğulanlar") adlandırdılar. "Borcigenlər" məhz möcüzəli şəkildə dünyaya gələn qardaşların üçüncüsünün davamçılarıdırlar.

Yesugey batir tez-tez quş ovuna çıxırdı. O, bir gün Onon çayı sahilində xizəkli araba ilə rastlaşdı. Orada gənc və gözəl qız əyləşmişdi. Merkit tayfasından yenicə evlənmiş Eke Çiledu da onula yanaşı at çapırdı. Yesugey cəld evə dönüb iki qardaşını özü ilə götürdü. Onlar çay qırağına çatıb gəlmələri dövrəyə aldılar. Çiledu anladı ki, təkbaşına üç qardaşla bacarmayacaq, arvadını unudaraq atının başını döndərib dabanına tüpürdü, "Asta qaçan namərddir", - deyib aradan çıxdı. Moğollar onun ardına düşüb yorulanadək qovdular. Nəfəsləri kəsiləndə durdular.

Ələ keçən təzə gəlin acı-acı ağlayır, yaxasını yırtırdı. Onun əlacı qalmadığından "ovçusu"na ərə getdi. Qız xan nəslindən idi və adına Oelun-uçjin (xatun) deyirdilər. Bu hadisədən sonra merkitlər Yesugey batirdan bərk incidilər.

Borcigenlərin ulusu Çöllüyə tam sahib olmaq üçün tatarlarla savaşa girişdi. 1162-ci ildə növbəti döyüşlərin birində Yesugey batır tatarların iki qoçaq əmirini – Temuçjin-Uqe və Hori-Buhanı əsir aldı. Ulusa dönəndə ona xoş xəbər verdilər: Oelun-uçjin onun ilk oğlunu dünyaya gətirib.

İkinci minilliyin ən nəhəng səxsiyyəti ana bətnindən çıxanda böyrək parçasını xatırladan laxtalanmış qanı bərk-bərk ovucuna sıxmışdı. Bəlkə bu onun dünyaya qan udduracağına işarə idi.

Bu an bir hadisə ilə də əlamətdar idi. Tatarlar üzərində qələbə əldə edilmiş və sülh sazişi bağlanmışdı. Yesugey batır son döyüşdə görünməmiş uğur qazanmış və tatarların ən məşhur sərkərlərini enmişdi. Bu şərəfə görə, o, tatar sərkərdəsinin adını oğluna qoydu: Temuçjin («dəmirçin» – «dəmir kimi möhkəm» deməkdir). Beləcə gələcəkdə Böyük Çöllük xalqlarını birləşdirəcək, Monqolstan adlı dövləti dünya xəritəsində əbədi cızacad, ölkəsinin torpaqlarını Doğu dənizindən Bati dənizinə çatqıracaq cocuğu atası ilk dəfə türk sözü ilə çağırdı:

–Temuçjin!..

Bütün ulus Yesugey batırın səsinə səs verdi.

"Dəmir" sözündən törəyən adı tarixdə ilk dəfə Çingizxandan min beş yüz əvvəl dünya şahı Kirin başını kəsib qan tuluğuna salan Qafqaz massagetlərinin qadın hökmdarı Tomiris əbədiləşdirmişdi. Və bir neçə əsr ötəcək, Səmərqənddə Türkün yeni günəşi doğacaq, ümmanlaşan (Çingizxanlaşan) Temuçjini təzədən tarix meydanına Topal Teymur (Dəmir) şəklində çıxacaq. Dünya hələ çox təlatümlü aylar, illər yaşayacaq...

Yesugey batırın Oelun-uçjindən daha üç oğlu – Hasar, Haçuin, Temuge-Otçiqin, bir qızı – Temilun doğuldu. Onun ikinci arvadı da Bekter və Belqutay adında iki oğlan uşağını dünyaya gətirmişdi. Hər ikisi Temuçjindən böyük idi.

Doqquz yaşına çatanda Yesugey batır ortancıl oğlunu evləndirmək qərarına gəldi. Adət üzrə, o,Temuçjini yanına salıb tanışlarından birinin qapısını döydü. Kişi kunqırat tayfasında Borte adlı qızcığazı çoxdan gözaltı eləmişdi. Tədqiqatçıların qənaətinə görə, "kunqırat"/"honqirat" tayfa etnonimi "hunn" ("durna") və "irdend" ("xalq") kəlmələrindən yaranmışdı. Borte Temuçjindən bir yaş böyük idi. Lakin o qədər gözəl və yaraşıqlı idi ki, elçiliyə gələn ata-oğul fərqinə varmamışdı. Moğolların nikah ənənəsinə əsasən, oğlan qızla beş-altı il nişanlı qalmalıydı. Bu müddətdə hər iki tərəf sınaqlardan çıxmalıydı. Yalnız nişanlılıq zamanı başa çatandan sonra nişanlılar üçün böyük toy qurulurdu.

Qızın atası, səmimi və ürəyiyumşaq Day-Segen gələcək kürəkənini mehribanlıqla qarşıladı. Təbəssümünü gizlətmədən Yesugey batıra dedi:

–Oğlunun baxışlarında od püskürür, üzündə isə səhər şəfəqləri saçır.

Nişan mərasimindən sonra Temuçjin adətə əsasən Bortegildə qonaq qaldı, Yesugey batır təkbaşına geri qayıtdı.

Yol çox uzun idı. O, çöllükdə alov gördü. Bir dəstə insan ocaq qalamışdı, ətrafında süfrə açaraq yeyib-içirdilər. Onu da dəvət etdilər. Yesugey batır baxdı ki, ocaq başında oturanlar buir-nor tatarlarıdırlar. Onlarla üzbəüz vuruşub baş kəsdiyi, qan tökdüyü anlar yadına düşsə də, çağırışdan qaçmağı və yeməyə qatılmaq təklifindən vaz keçməyi özünə sığışdırmadı. Düşündü ki, Çöllükdə və süfrə arxasında tənha qonağa əl qaldırmaq kişiliyə sığmaz.

Yesugey batır tatarların yanında əyləşdi, doyunca yeyib-içdi. Danışıbgüldülər. Hər şey çox yaxşı keçdı. Və gecənin bir aləmində kişi onlardan ayrılıb yoluna davam etdi. Xeyli at çapandan sonra birdən-birə Yesugey batırın halı pisləşdi, onu tər basdı, ürəyi bulandı, başı hərləndi. Yüyəni belinə sarıyıb atın boynunu qucaqladı ki, yerə yıxılmasın. Evə necə çatdığını bilmədi, huşunu itirmişdi. Yesugey batır dörd gün yataqdan qalxmağa özündə taqət tapmadı. Axırıncı axşam dostu Menqlikə xırıltılı səslə anlatdı ki, tatarlar xəyanət etdilər, şəraba zəhər qatıb ona içirdilər. O, əbədilik gözlərini qapadı.

Ölümü ilə Yesugey batirin qurduğu ulus da çökdü. Müxtəlif nəsil qruplaşmaları, nökərlər başçının var-yoxunu talayıb gözdən itdilər. Üzə ağ olanların sayının artığını görən Oelun-uçjin nəsil bayrağını əlinə alıb havaya qaldırdı.

–Papağınızı qabağınıza qoyud düşünün, – dedi, – Yesugey batırın çörəyini itirməyin.

Bəzilərini xəcalət təri basdı. Hərəkətlərindən peşiman olub ələ keçirdikləri şeyləri geri qaytardılar və

mərhumun puhuna dua oxumağa başladılar. Yerdə qalanlar isə qeyrətsizliklərini boyunlarına alıb pis əməllərindən əl çəkmədilər.

İki dul qadın uşaqlarla başsız qalmışdı. Ailənin itirən günləri başlandı. Döyüşçü-sahibkarın yurdunda tərəfdarları zaman keçdikcə azaldı, get-gedə bütün tayçjuitlər obanı tərk etdilər. Hərə əlinə nə keçirirdi, qazanc bilib xurcununa qoyur və başqa diyara üz tuturdu.

Yesugey batırın uşaqlarının sağ qalmasının bir səbəbkarı vardı: Oelun-uçjin ana həm ev, həm də çöl işlərini öhdəsinə götürmüşdü. Onun böyük oğlu 9, körpə qızı isə 1 yaşında idi. Mal-qaranı nökərlər aparmışdılar. Tövlələr boş qalmışdı. Oelun-uçjin Yesugey batırın ikinci arvadı Soçihellə öz övladlarının qarnını bağın, bostanın və meşənin məhsulları ilə doydururdu. Uşaqlar bir az yaşa dolandan sonra Onon çayından balıq tutmağa alışdılar, kiçik yaylarını işə salmaqla quş da vurdular. Bütün yayı və payızı ailə gecəni-gündüzə qatıb işləyirdi, qışa hasırlıq görülürdü. Beləcə 5-6 il etiyac və aclıq içində keçdi.

Uşaqlığında daim yaxınlarından xəyanət, alçaqlıq, zorakılıq, qətl-qarət görən Temuçjin xaraktercə qəddarlaşdı, heç kimə, doğmalarına da güzəştə getmədi. Bir dəfə uşaqlar arasında mübahisə düşdü. O, kiçik qardaşı Hasarla birlikdə süd qardaşı Bekteri insafsızcasına oxladı...

Bu hadisənin mayasında bir tərəfin mənəmliyi, digər tərəfin isə əyilməzliyi dururdu. Belə ki, Bekter nəsildə yaşca böyük oğul idi. Aralarındakı yaş fərqi çox olmasa da, monqol-tatar ailələrinin əxlaq normalarında evin böyük oğlu ata olmayanda onu əvəz edirdi. Yesugey batırın ölümündən sonra Bekter kişiləşməyə başladı. Ailədəki üstünlüyünü hamıdan qabaq kiçik süd qardaşlarına göstərmək istədi. Temuçjinlə Hasar quş və balıq ovunda hamıdan məharətli idilər. Bir dəfə onlar torağay vurmuşdular. Ovu götürəndə Bekter onların başının üstünü kəsdirib quşu əllərindən almışdı. Məqsəd böyüklüyünü nümayiş etdirmək idi. Bu hal hər iki qardaşa yer eləmişdi. Temuçjin içinə salıb susmuş, Hasar isə dözməyib anasına şikayətlənmişdi. Oelun xatun Bekteri danlamaq, məzəmmət etmək əvəzinə onun müdafiəsinə qalxmışdı:

–Adam böyüyün sözündən çıxmaz, onun üzünə ağ olmaz!.. – demişdı.

Aralarında son qalmaqal çayda balıq tutanda baş vermişdi. Bekter Hasarın toruna düşən balıqları götürmək istəyəndə Temuçjin qəzəblə onun üştünə cummuşdu, onu itələyib suya salmışdı. Bekter bir xeyli çabaladıqdan sonra çaydan çıxıb ona hədə-qorxu gəlmiş, hətta balaca süd qardaşına əl qaldırmaq istəmişdi. Bu zaman Temuçjin əyilib kəlləsi ilə onun qarnına bərk zərbə vurmuşu. Gözlənilmədən Hasar yayına ox qoyub atmışdı. Ox düz Bekterin ürəyinə sancılmışdı. Qardaşlar tutduqları balıqları qarmaqlara sancıb çiyinlərinə atmış, Bekterin nəfəsi kəsilmiş bədənini qan içində yarğan aşağı diyirlədərək evə dönmüşdülər...

Müdrik Oelun ana nə baş verdiyini uşaqlarının üz-gözünə, görkəmlərinə baxan kimi anladı və oğlanlarına qarğış yağdırdı:

–Can alanlar, – deyə Temuçjinin üstünə qışqırdı, – sən mənim bətnimdən işığa çıxanda nahaq yerə ovucunda qan tutmamışdın...

## AND – DAĞ SAQQIZI DEYIL...

**“Kim öz içərisini şərdən təmizləməyi bacarırsa, böyük ölkəni də oğrulardan, quldurlardan təmizləyə bilər”.**

*Çingizxan belə deyirdi.*

Temuçjin içinə qapılıb meşələrə və Çöllüyə sığındı. Təbiətin saflığında, səxavətində, sərtliyində, qəddarlığında özünün keyfiyyətəlrini gördü, onunla təskinlik tapdı ki, hələ zamanın amansız olaylarında sınmayıb, daim dəmir kimi bərkiyib.

Qış düşmüşdü. Ononun suları donub buz bağlamışdı. 11 yaşlı Temuçjinin günü qardaşları ilə birlikdə çöldə, çay qırağında keçirdi. Qardaşlar bekar qalanda başqa yeniyetmələrə qoşulub çayin üzərindəki buzlaqda oynayırdılar. Temuçjin burada Camuhla tanış olmuşdu. Oğlanlar bir-birinə isinişib dostlaşmışdılar. Onlar yaz girəndə yay-oxlarını dəyişdirib and işdilər və bu andan qardaşlaşdılar. Camuh qızıl kəmərini belindən açıb gözlərindən od-alov yağan Temuçjinə bağışladı.

Camuhun ailəsi cadaran (cuirat) soyundan idi. Onlar Onon çayı yaxınlığında tez-tez düşərgə salırdılar. Temuçjinin yurdunun qonşuluğunu etibarlı yer saymalarının bir səbəbi o idi ki, onların Yedigey batırla uzaq qohumluqları çatırıdı.

Moğol mədəniyyətində qohumluq əlaqələri yüksək qiymətləndirilirdi. Uluslarda belə bir inam formalaşmışdı: “Qohumsansa, əzizisən, qohum deyilsənsə – düşmənsən”. Arada qohumluq telləri nəsil şəcərəsinin hər hansı bir qanadi ilə bağlanırdısa, ortada sədaqət, sadiqlik, etibar yaranırdı.

Camuh bir yaş Temuçjindən böyük





olduğundan onu kiçik qardaşı sayırıdı. Onlar uşaqlıqda iki dəfə əbədi dostluq andı içmişdilər. Birlikdə ova çıxırdılar, balıq tuturdular. Çöllük həyati yaşayan ailələrin uşaqları – istər qız, istər oğlan olsun, atla böyüyürdülər. Adətən, 4 yasa çatanda atı yəhərsiz minib çapa bilir, hətta atın belində ayaq üstə durmağı bacarırdılar. Oğlanların ən maraqlı oyunları at üstə güləşmək idi. Onlar qarşılaşıb biri digərini atdan yerə salmayınca əlbəyaxa olurdular. Belə oyunlar yeniyetmələri gələcək döyüşlərə hazırlayırdı. Özləri sərbəst at belinə qalxmağı bacaranda isə çapa-çapa ox atmaği öyrənirdilər.

Camuhla Temuçjin arasında ikinci andiçmə rituali daha ciddi xarakter aldı və qədim türk-moğol adətinə əsaslandı. Oğlanların hər ikisi barmaqlarını kəsib qan çıxan yerlərini bir-birinə yapışdırdı, beləcə onlar qanlarını qarışdırmaqla sanki ürəklərini dəyişdirdilər. Temuçjin bütün ömrü boyu ancaq bir nəfərin – Camuhun qarşısında üç dəfə and içmiş və həmişə Andına sadiq qalmağa çalışmışdı.

Növbəti qış fəslində Camuhgilin köçü Onon sahilində qışlamadı və oğlanlar ►

uzun müddət bir-biri ilə görüşə bilmədilər. Təəssüflər olsun ki, Temuçjinin uşaqlıq andı həyatında əbədi iz buraxdı və hakimiyyət uğrunda mübarizəsinə dəfələrlə maneçilik törətdi.

Nəhayət, qardaşlar və qohumların uşaqları bir araya gəlib Temuçjini xan seçdilər, nəslin toplantısında məsələ qalxanda ağlına, dərrakəsinə, bacarığına, möhkəm iradəsinə görə onun yüksəklərə qalxacağına şübhə ilə yanaşılmadı. Çörəyi dizinin üstündə olanlarla yanaşı, müxtəlif tayfalar arasında Yesugey batıra rəğbət bəsləyən ailələr də az deyildi.

Uluslarda aramsız şayələr gəzirdi ki, Temuçjin ölkənin bəlalardan qorumağa and içib. Qamlar (şamanlar da) ona hökmranlığının göydən gəldiyini söyləyirdilər. Bütün bunlar bu nəslin düşmənlərinin sayını günü-gündən artırırdı.

Qəflətən tayçjiutların başçısı Tarqutay-Qiriltuh öz nəzarətçiləri ilə Borcigen ulusuna baş çəkir. Analar uşaqları yanlarına salıb tayqaya qaçırlar. Temuçjinin qardaşı Hasar yaya ox qoyub nişan alır, onlara yaxınlaşan yadlara atır. Tayçjiutlar ona məhəl qoymurlar və bağırırlar:

–Temuçjini verin, hamınızın canı qurtarsın. Başqası bizə lazım deyil, əllərimizi nahaq qana batırmayın.

Oelun ana oğlunu ata mindirdi. Ona dönə-dönə tapşırdı ki, tez başını götürüb qaçsın. Ailədən uzaq gəzsin. Yesugey batırın nəslinin ümidlərini qırmasın. O, düşmən əlinə keçməsə, tezliklə təhlükə sovuşacaq.

Temuçjinin əlacı bircə ona qalır ki, ailəsindən ayrılıb təkbaşına dağ meşəsində gizlənsin. O, doqquz gün ac-yalavac qalın meşədə dolaşdı, taqətini tamam itirəndən sonra vadiyə endi. Gözətçilərin pusqusuna düşdü. Onu əhatəyə aldılar. Yorğunluq işini gördüyündən aradan çıxmağa imkan tapmadı. Onun müqavimət göstərməyə də halı qalmamışdı. Tayçjiutlar tutub əl-qolunu bağladırlar. İlk dəfə ölümünü gözünün önünə gətirdi. “Hər şey bitdi, – deyə düşündü, – And da, arzular da, öhdəliklər də məhv oldu. Ulu Tanrı, yardım et, anama, qardaşlarıma toxunmasınlar”.

Nədənsə, Tarqutay-Qiriltuh Temuçjini edam etmədi. O, əvvəl çıxardığı ölüm hökmünü daha ağır cəza ilə əvəzlədi. Temuçjinin boynuna boyunduruq, ayaqlarına kündə keçirtdirdi və əmr etdi:

–Hər kəs yalançı xana öz ailə otağında ancaq bir dəfə gecələməyə icazə versin!..

Bədbəxt uşaq çadırdan-çadıra gəzməliydi, özgələrə yalvarmalıydı ki, ona su, yemək versinlər. Ona görə ki,



boyunduruq və kündələr özünün yeməyi götürüb ağzına aparmasını imkansız etmişdi. Kiminsə ona yazığı gəlməli və acından ölməməsi üçün öz payından kəsib uşağı yedizdirməli idi.

Dünya başına daralsa da, Temuçjin hər cür məhrumiyyətlərə dözdü. Bir gecə Borte qardaşları ilə gəlib tövlədə halsız uzanan nişanlısının qol-qıçlarındakı künədlərini, boynundakı boyunduruğu açdı. Onu özləri ilə götürüb dağlara qaçdılar. Gənc xan gizli mağarada bir neçə ay qaldı. Yaraları sağalandan sonra isə təzədən ailəsinə qovuşdu.

Temuçjinin nəsli tərəfindən xan seçilməsi təkcə keraitamda qəbul edilsə də, moğolların özləri tərəfindən ciddi narazılıqla qarşılanmışdı. Onlara görə, Temuçjini moğol xalqı və tayfa başçıları deyil, nəsil ənənəsinə riayət etməyən hansısa dönüklər xan seçiblər. Əmirlər buna silahlı çevrilişə və vətəndaş müharibəsinə hazırlıq kimi baxırdılar. Temuçjini aradan götürmək məqsədilə moğolların əksər qəbilələri Camuhun ətrafında birləşirdilər. Ölkədə aləm bir-birinə dəymişdi. Şayələr moğollar arasında ciddi qarşıdurma yaradır, hakimiyyət uğrunda mübarizə aparanlar aranı qarışdırmaqla rəqiblərini sıradan çıxarmağa can atırdılar.

Camuh Temuçjinin xan seçilməsi xəbərini eşidəndə nələrin baş verdiyini yaxşı dərk etsə də, birbaşa qardaşlığına üz tutmadı, Andını belə unudub Huçar və Altana dedi:

–Ey Huçar! Altan!.. Siz niyə işlərimizə burun soxub bizi Anddan uzaqlaşdırırsınız? Nə səbəbə biz ayrılmaz dost olan vaxtlarda Temuçjini xanlığa yüksəltmədiniz? İndi hansı ağılla onun adını xan kimi hallandırırsınız? Məqsədiz nədir? Ya verdiyiniz sözün üstündə möhkəm durun, ya da xeyirlisi budur ki, Andıma xidmət edin.

Temuçjin dostunun təklifini qardaşlarından eşidəndə qəzəbləndi:

–And dağ saqqızı deyil ki, istədiyin zaman çeynəyəsən, And ılahi qanundur!

– dedi.

Vətəndaş müharibəsi özünü çox gözlətmədi. İlk hərbi qarşıdurma Camuhun qardaşının qətlə yetirilməsi ilə başlandı. Tayçar dəliqanlı və intizamsız idi, Temuçjinin ordasından ilxını qaçırmaq xəyalını gerçəkləşdirməyə çalışdı. Mehdərlər duyuq düşdülər, hər tərəfdən tökülüşüb oğrunu tutmaq istədilər. Qaçmağa can atanda oxla vurub Tayçarı öldürdülər. Bu hadisə savaş üçün bəhanəyə çevrilsə də, qarşıdurmanın əsas səbəbi deyildi.

Camuh ona könüllü qoşulan 30 min atlı ilə döyüş meydanına gəldi. Temuçjinin arxasında ancaq 13 min silahli insan toplaşmışdı. Onlar müxtəlif nəsil və tayfaların narazı nümayəndələri idilər. Dalanbalçjutda başlanan savaşda Camuh Temuçjinin ordusunu sıxışdırıb Onon gölü yaxınlığındakı dərəyə yığdı. Onları üzük qaşı kimi araya aldılar. Qələbənin bir addımlığında dayanan Camuh soyuqqanlıq göstərib dərəyə hücum çəkmədi, lakin əsirlərlə çox amansız davrandı. Göstərişi ilə ələ keçənlərin hamısının başını bədənindən ayırdılar. O, qələbə sevincinə sahib olmadan ordusunu geri apardı.

Camuhun anlaşılmaz qərarları və qətiyyətsizliyi ardıcıllarını bərk narazı saldı. İki ən qoçaq və döyüşkən tayfalar – urut və manqutlar onun düşərgəsini tərk edib Temuçjinə qoşuldu. Çünki bu tayfalar həmişə qələbəyə can atmışdı. Bu savaşda Camuh çoxlarının ümidlərini doğrultmadı. Onun addımlarını şərəfsizlik kimi qiymətləndirənlər birbaşa Temuçjinin və onun silahdaşlarının xidmətinə keçdilər. Hiss etdilər ki, Çöllükdə hakimiyyət və qələbə daim Çingizlilərə nəsib olacaq.

Son hadisə Temuçjinin nüfuzunu birə on qat artırdı. Borcigenlər Camuhdan yaxalarını asanlıqla qurtarmalarına görə məclis düzəltdilər. Yeyib-içməyin ən şirin çağında xəbər çatdı ki, çjurjenlilərin qisasçı dəstələri tatarları Uluz çayı hövzəsində izləyərək sıxışdırıb düz moğolların mühasirəsinə saldılar. Əslində tatarların ulus rəhbərlərindən biri – Mucin Sulu Çin imperatoru Altın xana qarşı üsyan qaldırmışdı. Bundan xəbər tutan imperator çjurjenlilərin qisasçı dəstələrini ixtişaşı yatırmağa göndərmişdi.

Temuçjin tatarlarla ulusu arasındakı köhnə ədavəti yada saldı, keraitlərin xanı Toğrula xəbər göndərdi ki, tez ordusunu doyüşə hazırlasın. Onlar birləşib tatarları pərən-pərən saldılar. Əsir düşənləri öz aralarında bölüşdürdülər. Sonra çjurjenlilərin dəstə başçısına qələbə xəbəri göndərdilər. Göstərdikləri yardıma görə imperator Altın xan Toğrulu “Van xan”, yəni “keraitlərin hökmdarı”, Temuçjini isə “Caut-Kuri” (“böyük əmir”) titulları ilə mükafatlandırdı.

Bir müddətdən sonra Temuçjin Camuhun ordu birləşməsi ilə yenidən üzüzə gəldi. O, məğlubiyyətdən bu dəfə də yaxa qurtarsa da, döyüşdə ciddi yara aldı. Tərəfdarları onu ölümcül halda qanlı meydandan çıxarıb təhlükəsiz yerə apardılar. Böyük əmir rəşadətli Celm sayəsində təzədən həyata qayıtdı. O, bütün gecəni ağır ox yarasından qan laxtalarını sovurub üştünə turşumuş süd tökdü. Düşmən naxırından mal-qara ələ keçirmişdi. Celm Temuçjini ölümün pəncəsindən qurtardı. Bu vuruş nəticəsində döyüşçülərin bir hissəsi könüllü olaraq Camuhun ordusuna qoşuldu. Temuçjinin sıraları xeyli seyrəltdi.

Uğurlu bir hadisə də baş verdi. Camuhun ordusunda xidmət edən gənc döyüşçü, isud tayfasının nümayəndəsi Cirquad onun yanına gəlib etiraf etdi ki, savaş meydanında onun atlarını oxlayıb. Qonaq:

–Sən indi, – dedi, – həqiqəti bilətndən sonra ölüm fərmanıma imza atsan, bir ovuc torpağı qana bulaşdıracaqsan, yox, əgər məni sağ saxlasan, sənə can yandıraram, dərin suların qarşısını alaram, bərk dasları xırdalayaram.

Temuçjin təmkinini pozmadan cavab verdi:

–Düşmən savaşda insan bası kəsirsə, adi halda öz aləmində günahlarını boynuna alsa da, bunu heç vaxt dilinə gətirmir. Sən məndən bir şey gizlətmədiyin üçün gəl ardıcılım ol!..

Temuçjin atdığı addımın şərəfinə qonağına “Cebe” (“yay”) adını verdi. Bu, o Cebe-noyon idi ki, Çingizxanın yanında onbaşı kimi xidmətə başlayıb, qısa zamanda ən istedadlı sərkərdələrindən birinə və bütün səfərlərinin fəal iştirakçısına çevrilib.

Tarixçilər bir məsələni aydınlaşdırmaqda çətinlik çəkirlər: Temuçjin 1197-ci ilədək hansı işin icraçısı olub? Mənbələrdə bu dövrlə bağlı heç bir məlumata rast gəlinmir. Bəzi tədqiqatçılar (L.N.Qumilev) Çin generalı və tarixçisi Çjao Xuna əsaslanaraq yazırlar ki, Temuçjin çjurçjenlərə əsir düşüb və “on ildən artıq” zindanda saxlanılıb. Əlinə fürsət keçdiyindən oradan qaçıb. Doğrudur, bu məlumat başqa alimlərin fikirləri ilə üst-üstə düşmür. Əksəriyyət bir faktı təsdiqləyirlər ki, Temuçjin hansı səbəbdənsə, uzun müddət ulusundan ayrılıb. Onun ordasının ağır çağları başlanıb. Hasar mahir və cəsur atıcı-oxçu idi, lakin təşkilatçılıq qabiliyyətinə malik deyildi. Azad döyüşçülər yeni başçıların bacarıqsızlığına dözməyərək dağılışmağa başlamışdılar. Bu səbəbdən də Temuçjin ordada təzədən peyda olanda əvvəlki 13 minlik silahdaşının yalnız 2600 nəfəri ilə rastlaşır. O, yenidən tayfaları birləşdirməyə cəhd göstərir. Bu iş qan tökmək bahasına başa gəlir, dava-dalaş səngimirdi. Hadisələr ilk baxışda tayfalar arası hakimiyyət savaşı təsiri bağışlasa da, əslində Çöllükdə yeni cəmiyyət qurmaq uğrunda mübarizə aparılırdı.

## QAN DƏNİZİNDƏN KEÇƏN BİRLİK

**“Kim öz evində qayda-qanun yarada bilirsə, böyük yurdda da qayda-qanun yarada bilər. Kim döyüşdən 10 nəfəri sağ-salamat qurtarmağı bacarsa, ona 1000, ya da tuman tapşırın, o kəs onları savaşda idarə etməyə qadir olar”.**

*Çingizxan belə deyirdi.*

1201-ci ildə 16 tayfa başçısının təşəbbüsü ilə qurultay çağırıldı və Camuh Gur-xan seçildi. Qarşıya məqsəd qoydular ki, Temuçjini və Van-xanı aradan götürsünlər. Lakin bu dəfə də tale onların üzünə gülmədi. Koyten ətrafında Temuçjin və Van-xan təbii hadisədən faydalanaraq tayçiutların ordu birliyini dağıtdı. Qəflətən tufan qopmuşdu. Camuhum müxtəlif tayfalardan ibarət qoşunları arasında əlaqə tamam kəsilmişdi. Onon çayı cahillərində Temuçjin tayçjuiytləri pərənpərən salmışdı.

Temuçjinin ilk böyük hərbi yürüşü bir sıra tatar tayfalarına qarşı oldu. O, Toğrul xanla birlikdə yolagəlməz qonşularına dərs vermək qərarına gəldi. Atasının intiqamını almaq zamanı çatmışdı.

Temuçjin 1202-ci ildə öz döyüşçüləri ilə tatarlara qarşı hücuma keçdi və qələbə çaldı. İlk növbədə, əsirləri toplayıb düşmən tayfa, nəsil başçılarını edam etdi. Sonra genişləndirilmiş çadırda ailə şurasını çağırdı, sıravi əsir tatarlarla necə rəftar etmək məsələsi müzakirə obyektinə çevirdi. Geniş mübahisə açdıqdan sonra qərara aldılar ki, yaşlı və təcrübəli tatar döyüşçülərini qırsınlar. “Gizli söyləmələr”də tatar soyqırımından danışılır, lakin həqiqətdə hadisələrin deyilən şəkildə baş vermədiyi təsdiqlənir. F.Rəsidəddin də göstərir ki, Temuçjinin əmri yerinə yetirilmir. Təkcə Çingizxanın oğlu, şücaətli Batı xanın atası Cuçi tatar arvadının xahişi ilə 1000 tatardan 500 nəfərini gizlətmişdi. Əmir evlərinin uşaq və arvadlarını ordaya götürmüşdülər. Temuçjin özü tatar xanının qızlarını – Yesuqat xatun və Yesulun xatunu arvadları sırasına qatmışdı. Onlar da bun-►







dan faydalanaraq başqalarının bir neçə uşağını yanlarına almışdılar. Tatarların əksəriyyəti döyüş başlamamışdan qabaq qərbə köçmüşdülər, nəhayət, çoxları moğol noyonlarına paylanmışdı, bu və başqa səbəblərdən qırğından yaxa qurtara bilmişdilər.

Səlnaməçi F.Rəşidəddin əsərinin bir yerində xüsusi vurğulayır ki, "Çingizxanın qəzəbinə gəlib tamam qırılmaq təhlükəsi qarşısında qalan tatar soylarının bir hissəsi son nəticədə müxtəlif guşələrə səpələndi, onlar bu və ya digər səbəblərə görə həyatlarını qurtara bildilər... Bu xalqın nümayəndələri Çingizxanın dövründə də, ondan sonrakı çağlarda da böyük və hörmətə layiq əmirlər kimi ordada, eləcə də dövlət pillələrində ali rütbəli moğollar tək yüksəldilər. Bu günlərədək tatarlardan bütün uluslarda böyük əmirlər meydana gəlməkdədir. Çox hallarda onları Çingizxan nəslinin qızları ilə evləndirir və özləri də həvəslə tatar qızları ilə ailə qururdular. Eləcə də hər ulusda onların əmir olmayan çoxsaylı nümayəndələri yaşayır və moğol ordusunda vicdanla qulluq edirlər. Özü də hər biri ayrılıqda tatar nəsillərinin hansı qanadına mənsubluğunu yaxşı bilir".

Moğollar düşmən tayfaların uşaqlarını heç vaxt incitmirdilər. Yetim qalanları öz qadınlarının tərbiyəsinə verirdilər. Hətta Temuçjinin anası Oelun xatun da 4 nəfəri yetişdirmişdi. Və digər moğol qadınları xan anasının yolunu davam etdirmək üçün yarışa girişirdilər. Çünki 20 ildən sonra qəyyumluğa götürülən uşaqlar boya-başa çatırdı, Çingizxan tərəfdarlarının sayı artırdı.

Keraitli Toğrul xan Temuçjinə ürəkdən bağlanmışdı. Onun yardımı ilə Böyük Əmir bir çox rəqiblərini aradan qaldırmışdı. Söz gəzirdi ki, Toğrul xan taxt-tacını Temuçjinə vermək istəyir. Xanın oğlu bundan narazı idi və Temuçjinə sui-qəst hazırlayırdı. İki keraitli mehdər bundan duyuq düşüb Temuçjinə xəbər apardı.

Temuçjin təhlükəni özündən sovuşdurdu və nankor xan oğlunu cəzalandırdı. 1203-cü ilin payızında Toğrul xanın ordusu Temuçjinə qarşı çıxdı və darmadağın edildi. Bundan sonra keraitlilər parçalandılar. Bir hissə Temuçjinə sığındı. Əslində Temuçjin keraitliləri ailəsinə düşmən deyil, rəqib sayırdı. O, təsadüfi olaraq həlak olmuş Toğrul xanın qızını sevimli oğlu Toluna arvad eləməmişdi. Tezliklə kerait bahadırları və noyonlar moğol ordasına qarışaraq əridilər.

Tatarlara divan tutulandan sonra Tayan xan Temuçjini qabaqlamaq istədi, yürüşə hazırlaşdı, lakin o, səfərədək ordusunu müttəfiqləri ilə birləşdirməyə fürsət tapmadı. Qarşı tərəfin üstünə gəldiyini eşitdi. Temuçjinin ordusunun ön sıralarına Cebe başçılıq edirdi. O, Subetayı özünə köməkçi götürmüşdü. Komandir 25, köməkçi isə 17 yaşdaydı. Subetayın mənşəyi şimallı utyanh tayfasına bağlanırdı. Onda Cebenin xarakterindəki çılğınlıqdan, macəraya meyilliliyindən əsər-əlamət yox idi. Hərəkətlərində dəqiqlik, götür-qoy, ölçüb-biçib qərar çıxarma üstünlük təşkil edirdi. Onlar ikisi birlikdə bir-birini tamamlayırdılar. Temuçjin uzaqgörənliyi ilə bu gənc döyüşçüləri diqqət mərkəzinə alıb qoca komandirlərin yerinə irəli çəkirdi.

Naymanlı On xanın oğlu Sengur

cuiratların məğlubiyyəndən sora baş götürüb qaçan Camuhu böyük sevgi ilə qarşıladı, gizli yolla onu təhlükəsiz yerə ötürdü. Sengur atasının ağlını oğurlayıb Temuçjinə qarşı nifrət oyatmağa çalışdı. Hər dəqiqə müharibə başlanmaq təhlükəsi yaranmışdı.

Tatarlar üzərində qələbədən sonra, Şərq təqviminin Donuz ilində (1203) Temuçjin naymanlarla məsələni qəti şəkildə çürütmək qərarına gəldi. On xandan xahiş etdi ki, qızını ona ərə versin. O bilirdi ki, nikah razılığı alsa, Camuh üzərində qələbəsini yaxınlaşdıracaq. Lakin On xan siyasi aləmdə özünü tanıtmayan oğlu Senqurun təkidi ilə 20 illik müttəfidinə rədd cavabı verdi. Marko Polo yazır ki, On xanın kəskin, kinayəli sözlərini moğollar uzun zaman yaddan çıxartmadılar. O, demişdi:

–Məgər Çingizxan mənim qızımla evlənmək fikrinə düşməklə xəcalət çəkmir? Məgər o, anlamır ki, mənim vassalım və qulumdur? Gedin, ona söyləyin ki, mən qızımın əllərini ona verməkdənsə, böyük həvəslə tonqalın alovunun içinə atib yandıraram...

Lakin qoca xan tez bir zamanda yumşaldı, səhvini boynuna aldı və bərk narahatçılıq keçirməyə başladı: artıq bütün Çöllükdə ən bacarıqlı hərbi rəis kimi tanınan Temuçjin, görəsən, onun sərt və kobud cavabını eşidib hansı addımı atacaq? O, tatarların Esuqey batırı asan yolla aradan götürmələrini xatırlayıb təhlükəni sovuşdurmaq məqsədilə hiyləyə əl atdı. On xan qasid gondərdi ki, artıq fikrini dəyişib, qızını Temuçjinə ərə verməyə razıdır. Onu ailəsi ilə birlikdə nikah mərasiminə çağırır. Gün də təyin etdi.

Görünür, Temuçjin hələ də xanın etibarına inanırdı. Bütün ailə yığışıb az dəstə ilə toya yola düşdü. Yalnız təzə gəlinin mənzilinə bir günlük məsafə qalanda onlar On xanın xəyanətindən xəbər tutdular. Özlərini ayaqları ilə uçuruma apardıqları üçün təşviş keçirdilər.

Temuçjin ikinci dəfə:

–Məğlub olacağını qabaqcadan bilən adamım döyüşə girib ölməsi axmaqlıqdır, – deyib kiçik dəstəsinə əmr verdi, – Hərə bir tərəfə üz tutub can qurtarsın.

Temuçjin çox az atlı ilə Şərqə doğru çapdı. 20 il əvvəl Borte merkitlər tərəfindən qaçırılında olduğu kimi dabanına tüpürüb durmadan gecə-gündüz yol getdi. O, özünün, ailəsinin və yaxın qohumlarının taleyini neçənci dəfə idi ki, Çöllüyə tapşırırdı. Nəhayət, onlar Balcun golünün sahilinə gəlib çatdılar. Temuçjinin ətrafında təkcə qardaşı Hasarı və 19 döyüşçüsünü sağ-salamat gördü. Qalan




qohumlarının başlarına nə gəldiyindən xəbərsiz idi. Lakin onların özlərinin də həyatı tükdən asılı idi. Qarşıda insan ayağı dəyməyən yerlərdə acından ölmək təhlükəsi dururdu.

Qəflətən şimal tərəfdən bir vəhşi at qaçqınların üstünə yeridi. Hasar fürsəti əldən verməyərək onun ardına düşdü. Atı vurub kəsdilər, ətini bişirib yedilər. Temuçjin Hasardan başqa qalan qohumlarının Çöllükdə hərəsinin bir tərəfə üz tutaraq gözdən itdiyini görmüşdü. Doğmalarından bəziləri On xanın yanına getməyə üstünlük vermişdi. Hətta istəkli əmisi də qardaşı oğlunun əleyhinə çıxıb Camuha qoşulmuşdu.

Bu dəfə də Temuçjini at ölümdən qurtardı. Və onlar açlığa qalib gəlmələri, güc əldə etmələri üçün də Tanrıdan at pay aldılar.

İçməyə suları yox idi. Temuçjin bir əlini göyə qaldırdı, digərində tutduğu qabı Balcun gölünün lilli suyu ilə doldurdu. O, ölümlə üzbəüz dayanan silahdaşlarının şərəfinə tost dedi və dodaqlarını bulanıq suya yaxınlaşdırıdı. Sonra qabı qardaşına ötürdü. Hamı bir-bir lilli sudan bir-iki qurtum ağzına alıb boğazını yaşladı və ömürlərinin sonunadək başçıya sədaqət göstərəcəyinə and içdi.

C.Uezerford yazır ki, "Tarixin bu epizodu sifahi ədəbiyyatda "Balcun andı" adını almış, mifikləşərək Temuçjinin ən uğursuz hərbi addımı və hər şeyin təzədən başlanmasının ərəfəsi sayılmışdır".

Temuçjin Goy tanrısına və Dağ ilahəsi Burhan Halduna inanırdı. Onun yanında olan 19 məsləkdaşının 13-ü tanrıçı, 3-ü müsəlman, 2-si xristian, 1-i bütpərəst idi. Sonuncuların hər biri təkcə onun qarşısında şəxsi sədaqətləri barədə and içmişdılər. Bu, indi daha yaxşı anlaşılan dostluq və qardaşlıq tipi idi və sonralar nəhəng imperiyanın əsasında duracaqdı.

Temuçjin Balcun gölünün sahilində gizlənərkən intiqam, yaxud əks hücum planı hazırladı. Qəflətən, cəld, yel tək və səhvciz hərəkət etməliydilər. Çünki On xan qısa zaman da olsa, elə zənn edəcəkdi ki, ondan yaxa qurtarıb. Arxayınlaşıb ordusunu başlı-başına buraxacaqdı. Temuçjin təcili Çöllüyə səpələnmiş tərəfdarlarına yeni planı barədə məlumat və tapşırıqlar göndərdi. Hamını həmrəyliyə, birliyə səslədi. O, kiçik dəstəsi ilə Balcun gölündən çıxıb xanın əyalətinə doğru irəlilədikcə bütün uluslardakı ardıcılları axışıb gəldilər. Anası və arvadı tərəfin qohumları xüsusi fəallıq göstərdilər.

Doğrudan da, On xan Temuçjinin qorxub qaçdığını zənn edirdi. Qüruruna sığmırdı. Asan qələbəsinin şərəfinə böyük məclis düzəltmişdi. Moğolların birləşmiş ordusu isə irəli yeridikcə genişlənirdi, gücünü birə on qat artırırdı. Mehdərlər dincəlmiş ilxıları irəli çəkir, sağlam, qaçağan atları yəhərləyirdilər. Döyüşçülər yorğun atlarını təzələri ilə əvəzləyib durmadan irəliləyirdilər. Temuçjin döyüş planını "İldırımsürətli yürüş" adlandırmışdı. O, ordusunu uzaq və çətin yollarla aparırdı ki, qarşıda pusquya düşməsinlər.

Qoşun qəflətən, kef məclisində xumarlanan keraitlərin üzərinə yeridi, sanki yağış tək göydən düşmüşdülər. Üç gün ▶

davam edən qanlı savaşda keraitlər geri oturdular. Qırılanların sayı-hesabı yox idi. Sağ qalanlar Temuçjin tərəfə keçdilər. On xanın sarayında qaçhaqaç başlandı və bir gecənin içində alaçıqlar dağılıb Çöllüyə qarışdı.

Vəliəhd Senqur cənuba üz tutdu, nökərləri öz canlarının hayında olduqlarından tək qalmışdı. O, bir neçə gündən sonra səhrada susuzluqdan öldü. Camuh isə sayı tamam azalmış ordusu ilə qərbə – Çöllüyün Temuçjinin təslim etmədiyi sonuncu böyük türk tayfası naymanların yanına tələsdi. On xan da özbaşına ora üz tutdu. Onun mənzil başına çatıb-çatmadığı məlum deyil. Moğollar qoca xanın ölümü barədə müxtəlif əhvalatlar yayır, hər iki tərəfdən xalqı inandırmağa çalışırdılar ki, Çöllükdə artıq Temuçjinə qarşı dura biləcək qüvvə qalmayıb.

Nəhayət, Monqolustanda vahid hakimiyyət uğrunda son döyüş Şərq təqviminin Siçan ilində (1204) müqəddəs Burhan Haldun dağından 300 mil aralıda baş verdi. Həlledici anda Temuçjin yeni ordu təşkilatı sistemindən istifadə etdi. Naymanların güclü və sayca bir neçə dəfə böyük ordusu ilə açıq savaşa çıxmaq əvəzinə qəflətən və sürətli hücum taktikası seçdi. O, "meydanda sürüklə" adlandırdığı əsgəri döyüş sırası ilə dan yeri sökülənə bir saat qalmış düşmənə qəfil zərbə endirdi. Böyük qoşunla üzbəüz savaşa girməkdənsə, alatoranda diqqət çəkmədən, kiçik dəstələrlə, gözlənilmədən müxtəlif yerlərdən arbanlarla irəliləməyə üstünlük verdi. Bu taktika düşmənə onların sayını müəyyənləşdirməyə, həmlələrin qarşısını düşərgənin bir tərəfində durub təşkilatlanmış şəkildə almağa şərait yaratmırdı, sıralarda çaşqınlıq baş alıb gedirdi. Arbalarla simşəktək zərbə endirib düşməni daha ciddi itkiyə məruz qoyur, eyni qaydada müxtəlif istiqamətlərdə cəld geri çəkilirdi. Bir göz qırpımında eyni tərzdə yeni hücum başlanırdı. Naymanlar özlərinə gəlməyə, əks tərəfi təqib üçün təşkilatlanmağa vaxt tapmırdılar. Bir-birinin ardınca davam edən belə hücumlar düşməni sarsıdırdı. Temuçjinin yeni döyüş qaydasının ikinci mərhələsi "göl" adlanırdı. Ordu zəncir tək uzanır, birinci cərgədəki oxçular irəliləyir, hamı birnəfəsə oxu atıb geri çəkilir, yerlərini başqa dalğaya verirdilər. Bu cür zəncirvari şəkildə düzülüb nəhəng ilan kimi sürünə-sürünə düşmənin içərilərinə soxulurdular, ağır zərbələr vurub cəld toranlığa qarışaraq yoxa çıxırdılar. Düşmən başını açmamış eyni qayda ilə başqa tərəfdən içəri soxulub işlərini görür və gözdən yayınırdılar. Geri çəkilənlər cərgələrin lap sonunda toplanıb o biri dəstə işini bitirənədək təzədən formalaşırdı. Naymanlar bu gözlənilməz, pərakəndə, ardıcıl hücum dalğalarından yaxa qurtarmaq üçün zəncir səklində uzanmaq məcburiyyətində qalırlar.

Elə ki, düşmən meydandakı mövqelərini əldən verib üzüaşağı səpələndi, Temuçjin planının üçüncü hissəsinə başladı. Bu dəfə ordusunu "iynə" adlanan döyüş qaydası ilə xüsusi dəstələrdə qruplaşdırdı. Onlar nazik və dərin cərgələrə düzüldülər. Məqsəd bu idi ki, diqqəti bir nöqtəyə zərbə endirməyə yönəltsinlər və naymanların uzanan sıralarını bir neçə yerdən zəiflədib cəbhə xəttini yarsınlar, düşməni ayrı-ayrı parçalara ayırmaqla mühasirəyə alsınlar. Əslində bu savaş üsulu moğolların qədim ov prosesinin müharibəyə ilk tətbiqi idi. Temuçjin düşündüyü savaş planını təlim keçmədən, hazırlıqsız, birbaşa döyüş meydanındaca silahdaşlarına ustalıqla içra etdirmişdi. Əvvəllər köçərilər savaşa vəhşi heyvanlar kimi soxulurdular, Temuçjin onları xüsusi nizam-intizamı gözləməyə, xüsusi qaydalara riayət etməyə alışdırmışdı.

Bu döyüşdən sonra el arasında məsəl yaranıb məşhurlaşdı: "Əgər Dəmir adam məni odun və suyun içinə göndərsə, gedərəm. Onun uğrunda – gedərəm".

Temuçjin axşama yaxın naymanları tamam sıxışdırıb dərənin qırağına cəmlədi. Gecənin zil qaranlığında moğollar bir-iki dəfə yüngül həmlə ilə düşməni qorxutdular. Naymanların bir hissəsi atla birlikdə dərə aşağı diyirləndi.

"Gizli əhvalatlar"da yazılır ki, naymanların cəsədləri dağın ətəklərində bir topa çürük odunu xatırladırdı. Onların xanı Tayan və xanzadəsi Quçluq həlak oldu.

Camuh meşədə gizləndi. Artıq Monqolstanda onu müdafiə edəcək qüvvə qalmamışdı. Qirx yaşlı əsilzadə bir müddət itkin düşənlər dəstəsinin üzvü tək ovun məhsulları ilə qidalandı. Tale elə gətirdi ki, tanınan, seçilib-sayılan, var-dövlət, sərvət toplayan sərkərdə, xan tituluna çatan Camuh Temuçjinin atasının ölümündən sonrakı ağır uşaqlıq vəziyyətinə həyatının sonunda düşdü.

Şərq təqviminin Öküz ilində (1205) naymanların məğlubiyyətindən sonra Camuhun tərəfdarları hamısı qərara aldılar ki, Temuçjinin mərhəmətinə sığınsınlar. Onlar başçılarının əl-qolunu bağladılar və qalib sərkərdənin hüzuruna gətirdilər.

Aralarındakı neçə illik düşmənçiliyə baxmayaraq Temuçjin yenə göstərdi ki, dostluqda sədaqətlilik hər şeydən üstündür. O, Camuha satqınlıq edənləri mükafatlandırmadı – halbuki onlar buna ümid bəsləyirdilər - əksinə hərəkət etdi:

–Köpəkləri satdıqları başçılarının gözü qabağında edam edin! – dedi.

Bu hərəkət Çingizxanın dünyaya verdiyi dərslərdən biri idi.

"Gizli əhvalat"larda iki cəsur döyüşçünün, yeniyetməlik dövründə qan qardaşlarının bir-biri ilə 20 illik mübarizəsinin emosional kulminasiyası qəribə notlarla tamamlanır. Temuçjin artıq bu halında – təklənəndən, ziyansızlaşandan sonra Camuhdan intiqam almaq istəmirdi. Monqolstanın birliyi naminə minlərlə insanın başını bədənindən ayıran amansız insan birdən-birə mum kimi yumşaldı. Bir ay əvvəl qanını içməyə hazır olduğu düşməninə yenidən birləşmək təklifi etdi:

–Gəl, əvvəlki tək dost olaq, - dedi, - İndi bizim yollarımızın kəsişdiyi məqamda unutduqlarımızı yada salaq. O anları ki, iki dostu silkələyib qəflət yuxusundan ayıra bilər. Bil ki, sən məndən üz döndərib gedəndən, tamam uzaqlarda olandan sonra da bəxtiyar və xeyirxah qan qardaşım idin. Şübhəm yoxdur ki, qətl və ölüm günlərində sinən və ürəyin mənim üçün sızlayırdı. Ona da şübhəm yoxdur ki, dağıntı və fəlakətlər zamanı sinən və ürəyin yenə mənim üçün sızlayırdı.

Camuh ani də olsa, keçmiş kiçik qardaşının, indiki dünya hakiminin sözlərindən təsirləndi, yeniyetməlik çağlarını xatırlayıb dedi:

–Bəli, biz yeyilməsi mümkün olmayan seyləri yeyirdik. Bir-birimizə unudulması mümkün olmayan sözləri söyləyirdik. Bir yorğanı bölüşürdük...

Sonra Camuh aralarındakı düşmənçiliyi naməlum üçüncü şəxsə ünvanladı:

–Kim ki, bizi qəzəbləndirdi, aldatdı, kənardan içimizə girib bizi başqa-başqa səmtlərə qovdu, tanrı onu da cəzalandırdı...

"Gizli əhvalat"larda Camuhun tövbəsinə həsr olunan böyük nitqinə rast gəlirik. Həqiqiliyi şübhə doğursa da, maraqlıdır.

–İndi dünyanın ancaq səni qəbul etməyə hazır olduğu anda, - davam edir Camuh, – mənim dostluğumun faydası nədir? Yox, qardaşım, sağ qalsam, istər-istəməz gecənin qaranlığında yuxuna haram qatacağam, günün işığında ürəyini sıxacağam. Mən sənin peysərində bit, qapında cat olacağam.

Nitqinin sonunda mərhəmət diləmək əvəzinə Camuh qalib hökmdardan ona ölüm bağışlamasını xahiş edir:

–Məni öldür və sümüklərimi uca bir yerə qoydur. Onda əbədi olaraq səni, sənin toxumlarını, onların toxumlarını, onların toxumlarının toxumlarını qoruya-

TARİXƏ SƏFƏR

cağam...

...Temuçjin dostunu arzuladığı kimi yüksək yerdə dəfn edir. Yeniyetməlik çağlarında qardaşlaşanda Camuh ona qızıl kəmər bağışlamışdı. Hökmdar o illərin xatirəsi kimi həmin kəməri meyitin belinə bağlatdırır...

## BÖYÜK SÜLALƏNİN AİLƏ SİRLƏRİ

**"O xalqın ki, oğlanları atalarının Biliyini qulaq ardına vurur, kiçik qardaşları böyük qardaşların sözlərini saymır, ərləri arvadlarının haqqını tapdalayır, arvadları ərlərinin üzünə ağ olur, qaynanaları gəlinləri alqışlamır, gəlinləri qaynanaları saymır, böyükləri kiçikləri qorumur, kiçikləri böyüklərin nəsihətlərini eşitmir, ixtiyar sahibləri, ancaq öz qulluqçularının ürəklərinə yol tapır, əvvəlki tanışlarından, kənardakılardan – bütün imtiyazlardan faydalanan digər nüfuz sahiblərindən uzaq qaçır, ölkənin əhalisinin qayğısını çəkmir, köməyinə çatmırlar, deməli, düşüncədən və şəraitdən doğan adətlərə, qanunlara riayət edilmir. Bu səbəblərdən bələləri dövlət rəhbərlərinin rəqiblərinə çevrilirlər: belə xalqın oğruları, yalançıları, düşmənləri, hər çür fırıldaqçıları özlərinə məxsus obadaca günəşin qabağını kəsib ətrafı qaranlığa qərq edirlər. Başqa sözlə, ölkəni içəridən qarət edir, talayırlar, dəstələri döyüşə aparacaq atlar qabaqcadan minilib çapılır, ilxılar dinclik bilmir. O səbəbdən də savaş meydanına çatmamış atlar yorulub durur, onların dizləri bükülür, nəfəsləri kəsilir, lazımsız varlığa çevrilir. Ordular gücünü itirir. Qələbəyə ümid qalmır..."**

*Çingizxan belə deyirdi.*



Dünya xaqanının 850 illiyi ərəfəsində moğol-tatar hegemonluğu mövzusunun aktuallaşması bir qədər təəccüb doğurur və son illərdə Çingizxanın Qərbin elm və ictimaiyyət aləmində həddindən artıq populyarlaşmasını onun müasir Avroasiya xalqlarının ulu əcdadı funksiyasını yerinə yetirməsi ilə bağlı tutarlı faktların aşkarlanması ilə izah etmək olar.

"American journal of human genetics" məcmuəsində 2003-cü ilin martında işıq üzü görən bir məqalə ətrafında böyük hay-küy qopmuşdu. Belə ki, 23 məşhur genetik alimdən ibarət qrup Avroasiyanın hər tərəfindən seçilmiş insanların "DNK"-sı üzərində araşdırma aparmışdı. Alınan nəticə, ilk növbədə, onların özlərinin böyük heyrətinə səbəb olmuşdu. Tamamilə əks qütblərdə və çox uzaq məsafələrdə yaşayan onlarla kişinin genetik quruluşunda tam oxşarlıq üzə çıxmışdı. Xəzər sahillərindən başlamış Sakit okeanadək uzanan ərazilərdə 16 qrup əhalinin (16 milyon nəfərin) 8 faizindən başqa yerdə qalanların genetik kökü eyni idi. Görəsən, bu fakt nə ilə bağlıdır? Məlumdur ki, kişilərdə özünü biruzə verən Y – xromosonu qadınlarda yoxdur. Eləcə də hər kişinin Y – xromosonunun quruluşu fərqlidir. Araşdırmalar sübuta yetirdi ki, Avroasiyanın sakinləri genetik cəhətdən bir ailənin törəmələridirlər. Bu dəlil, xronoloji baxımdan son 1000 illik dövrdə hər nəslə 35 il ayırmaq şərti ilə 34 nəsli əhatə edir. Ancaq nəsillərin bir-birini əvəzləməsində ortaq keçid həddi bu rəqəmdən xeyli aşağıdır. Bunu nəzərə alıb ortaq keçid həddi 25 il qəbul ediləndə 1000 illik zaman kəsiyi 850-yə enir. Bəs 850 il əvvəl avroasiyalıların bünövrəsini qoyan ►





nəhəng kişi kimdir? Kris Tayler-Smit və Tatyana Zerdjal bu qənaətə gəlmişdilər ki, həmin nadir "uşaq istehsalçısı" Çingizxandır. Qərb alimlərinin bu fərziyyəsi keçmişə başqa tərəfdən baxmaq üçün geniş imkanlar açdı. Demə, bir çox xalqların dilində təhqir, alçaqlıq anlamında işlədilən "monqol" kəlməsinin həqiqi daşıyıcıları hamının ulu əcdadı funksiyasını çiyinlərində şərəflə daşıyıbmış... Onun törəmələri olan bizlər kommunistlərin fitvalarına uyub əcdadlarımızın üzünə ağ çıxmış, adlarına nələr qoşmamışıq?..

Bəs, əslində 850 il əvvəl tarixdə nələr baş vermişdi?

XIV yüzilliyin türk mənşəli müsəlman tarixçisi F.Rəşidəddin *(O, 1240-47-ci illər arasında Həmədanda anadan olmuş, moğol sülalələrinə məxsus Qazan xanın hakimiyyəti çağlarında saraya çağırılmış, əvvəl ixtisası üzrə həkim işləmiş, sonra vəzirliyədək yüksəlmişdir. O, bir neçə dil bilirdi, dövrünün bütün elmlərinə bələd idi. 1318-ci ildə ölmüşdür)* yazırdı ki, Çingizxanın 500-ə qədər hərəm və kənizi (məşuqəsi) var idi. Lakin onlardan yalnız 5-i xaqanın əsas arvadı sayılırdı:

***1) kunqrat tayfasından Borte; 2) merkit tayfasından Kulan; 3) tatarlardan Yesuqat; 4) Hitiya hökmdarı Alanxanın qızı Quncu; 5) tatar Yesuqatın bacısı Yesulun. Ailədə Borte*** ən böyük və nüfuzlu xatun idi.

XIII-XIV əsrlərə aid müsəlman mənbələrinə görə, Çingizxan və çingizlilərin həyat yoldaşları ***"xatun"*** ("xanım"), ***"biki"*** (yaxud ***"biqe"***) fəxri qadın titullarını daşıyırdılar. Baş arvada ***"xatun-i buzurq"*** ("baş xanım"), böyük arvada ***"xatun-i buzurqmar"*** ("böyük xanım") deyirdilər. Sonrakı dövrlərin tarixi salnamələrində isə çingizlilərin nikahla bağlanan xanım və şahzadələrinə "xatun", "biqe" ilə yanaşı ***"xanım", "sultan"*** rütbələri də verilirdi.

1245-ci ilin fransist missiyasının iştirakçısı Benedikt Polyakın məlumatında köçəri tayfaların və moğolların nikah mərasimlərindən bəhs edilirdi: "Onlar sayca nə qədər çox qadını maddi və fiziki cəhətdən saxlaya bilirdilərsə, bir o qədər də arvad alırdılar. Bütövlükdə moğol-tatarlar qadınları pulla əldə edirdilər, ona görə də əsillilərdən başqa yerdə qalan arvadlar kişilərin xüsusi mülkiyyəti hesab edilirdi. Və eyni ananın qızı, bacısı istisna edilməklə kim xoşlarına gəldi, onun xərcini ödəyib hərənxanalarına aparırdılar. Ata dünyadan köçəndən sonra böyük oğul hətta cavan ögey ana ilə nikah bağlayır, qardaşın dul qadınını evin kiçik oğluna, ya da başqa yaxın qohuma ərə verirdilər". Marko Polonun müşahidələrinə görə də, hər bir "moğol ürəyi istədiyi sayda qadınla evlənirdi, bəzən arvadı, başqa arvadlar üstə gətirib hərəmlərinin ümumi sayını yüzə çatırırdı, heç bir maneçilik yox idi, təki onlara baxa bilsin. Kişilərin mal-mülkü, var-dövləti imkan yaradırdı, onların arvadlarının sayı iki yüzü də aşırdı. Başlıq - süd xərci şəklində qızın anasına ödənilirdi. Ər evi gəlindən cehiz tələb etmirdi. Birinci arvad həmişə üstün tutulur, ölənədək onun hörmət-izzəti qorunub saxlanılır, ərin ən əzizi sayılırdı".

Doğrudan da, çoxarvadlıq moğollarda adi hadisə idi, xüsusilə çingizlilər onlarla qadını tərəddüdsüz iqamətgahına gətirirdi, 2-dən 8-dək əsas arvad statusunu yerinə yetirir, qalanlar kəniz-aşna kimi kişini əyləndirirdi. Bütün otaqlar arvadlarla dolu olsa da, yalnız biri evin dirəyinə çevrilirdi. Çox hallarda nikahın vaxtı – ilkinliyi böyüklük üçün əsas götürülürdü. Yəni evə gəlin sayağı ilk qədəm basan qadın sonra gələnlərdən nüfuzlu sayılır, müəyyən üstünlüyə malik olurdu. Bəzən də əsilli-nəcabətliliyi onu ərin sevimlisinə çevirir, sözü sayılırdı.

Müasir rus tarixçisi İ.Krıçanov belə qənaətə gəlir ki, moğol-tatarlarda bir kişinin hərəmlərinin sayının həddindən artıq çoxluğu heç də onun seksual gücünü, səhvəti aktivliyini nümayiş etdirmirdi. Nikahların əksəriyyəti siyasi məqsədlər daşıyırdı, müxtəlif tayfalarla, xalqlarla Çingizxan nəslinin əlaqələrini möhkəmlətməyə xidmət edirdi. Maraqlıdır ki, türk-moğol qəbilələri içərisində bir neçə məşhur nəsil vardı ki, həmişə Çingizxan törəmələrini gəlinlərlə təmin edirdi. Çingizlilərin sınaqdan çıxarılmış nikah partnyorlarından biri kunqratlar hesab edilirdi. 1240-cı ilə aid xronikada - "Gizli əhvalatlar"da hətta bu tayfanın öz məşhur qızları ilə öyünmələrinə həsr etdikləri nəğmələri də yazı yaddaşına köçürülmüşdü:

***Biz kunqrat nəsliyik,***
***Qızlarımız var göyçək,***
***Şux qamətli, ürpək -***
***Hünərli, əsilliyik...***

Temuçjin ümummoğol uluslarının xanı elan edildikdən sonra kunqratların onun nəslinə qız ərə verməsi ənənəsi rəsmi şəkildə qanuniləşdirildi. Hökmdarın xüsusi fərmanında, "Yuan şi"də deyilirdi: "Nə zaman hun-tçsi-la (kunqrat) ailəsində qız doğuldu, o, nəsildən nəslə xan arvadı olmalıdır; oğlan dünyaya gəldi, o, nəsildən nəslə xan qızı ilə evlənməlidir. Qoy hər ilin dörd çağının ilk ayında fasiləsiz car çəkilsin, verdiyim bu

fərman camaata oxunsun!”

Moğolların genioloji tarixinə əsasən, Çingizxan sülaləsinin mövcud olduğu bütün dövrlərdə kunqratların qızları xanların baş arvadları olublar.

Çingizlilərin və digər məşhur moğol əsilzadələrinin məşuqələrinə isə əksər hallarda “kumma” (cəm halda “kummayan”), hərdən isə “surriy” (cəm halda “surriyyat”) deyirdilər. Adətən, iki kateqoriyadan olan qızlar kəniz seçilirdilər: moğolların öz yeniyetmə gözəlləri və əsarət altına alınan xalqların əsir düşmüş gənc və yaraşıqlı qızları. Çingizxanın göstərişi ilə hər ilin (bəzən 2-3 ildənbir) başlanğıcında bütün Monqolstandan, ayrı-ayrı tayfalardan xan və şahzadələr üçün kənizlər göndərilirdi. Xarici ölkələrə yürüşlərdə hər qələbədən sonra qoşun rəisləri əsir alınmış ay parçasına bənzər bakirə qızları hökmdara peşkək edirdilər. Xan ürəyinə yatanları hərəmlərinin içinə qatırdı. Onun xoşlamadıqları yad qızlar isə qohumlarına və əyanlarına çatırdı.

Səlnaməçilər Ə.Cuvayni və F.Rəşidəddinin şərhlərində moğol əxlaqının bütün tərəflərinə yer ayrıldığını görürük: kənizlərin statusu dəyişməz deyildi. Zaman keçəndən sonra xan onları əmirlərə, saray əyanlarına ərə verirdi, nadir hallarda da olsa hökmdarlar özləri də onlardan biri ilə evlənirdi. “Kumma”nın “xatun”laşması barədə orta əsrlərə aid müsəlman mənbələrində yazılır ki, “Xanın ürəyinə yatan kənizin başına “buqtaq” qoyurlar, dönüb “xatun” olur”. “Buqtaq” ərli qadınların baş bəzəyinə deyilirdi. İbn Battutun kitabında, İoann de Plano Karpini və Vilgelm de Rubrukun məlumatlarında “kumma”nın “xatun”laşması hadisəsi özünə yer alır.

Ələddin Ata - Məlik Cuveyninin 1260-cı ildə tamamladığı “Tarix-i Cahan-quşayi” (“Dünya fatehinin tarixi”) xronikasının “Çingizxanın oğlanları” bölməsində oxuyuruq: “Çingizxanın Böyük arvadı (xatun-i buzurqmar) Yusuncin-biki idi (mənbədə bu fakt səhvdir, əslində Çingizxanın Böyük arvadı Borte xatundur). Moğol adətinə görə, bir atanın çoxsaylı uşaqlarının təbəqələşməsi onların analarının tutduğu statusla müəyyən edilirdi. Belə ki, Baş arvadın oğlanları ilkin-əsas sayılır və onlar müəyyən üstünlüklərə malik olurdular”. Doğrudan da, Çingizxanın Baş arvadı Borte xatundan doğulan 4 oğlu digər övladları ilə müqayisədə daha böyük nüfuza, hörmət-izzətə malik idilər. Çingizxanın nəvəsi Hubilay-xanın (1260-1294-cü illərdə hakimiyyət taxtında oturub) 12 oğlu dünyaya gəlmişdi, ancaq onların da sırasında Baş arvad Çabun-xatundan doğulan 4 oğul nüfuz sahibi idi, qalanlar



sıravi əyanlardan seçilmirdilər. Qəribədir ki, ananın xan ailəsində tutduğu mövqeyə görə, övladların vəziyyətinin, titullarının müəyyənləşməsi sabit, dəyişilməz deyildi. Elə ki, Baş arvad dünyadan köçürdü, onun yerini başqası tuturdu, bu zaman oğlanların da statusunda dəyişiklik baş verirdi. Nikah prosesində başqa istisnalar da özünü göstərirdi.

Ümumilikdə, bütün hallarda əsas qərar atanın idi. O, istədiyi oğluna anasının tutduğu mövqedən asılı olmayaraq ən yüksək rütbə verə bilirdi.

İoann de Plano Karpini moğol ailələrinin sirlərinə yaxşı bələd olan şəxslərdən aldığı məlumatlar əsasında bildirirdi ki, “Moğol-tatarlarda arvadından, yaxud kənizindən doğulan uşaqlar arasında heç bir fərq yox idi. Ata kimə nə istəyirdi, onu da verirdi. Əgər o özü əsilzadə, əmir, yaxud xandırsa, fərqinə varmadan kənizdən olan oğlunu da, qanuni arvadından doğulan övladları kimi əmir, xan elan edə bilirdi”. Bu qayda Çingizxan sülaləsinin Asiyada ağalıq etdiyi bütün çağlarda qorunub caxlanmışdır. Hətta çingizlilərin kənizlərdən olan oğlanları qanunauyğun şəkildə hakimiyyət uğrunda mübarizə aparmış və taxt-taca sahib durmuşdular. “Muizz al-ahsab”da göstərilir ki, “Çingizxanın böyük oğlu Cuçinin arvadlarının (xavatinlərinin) və kənizlərinin sayı-hesabı yox idi. Sonunculardan ancaq ikisi ad-sanına görə məşhurlaşmışdı: Buvalın anası Qaraçin xatun və Tuqay-Teymurun anası merkit tayfasından olan Qarpi xatun. Maraqlıdır ki, kummanın oğlu Tuqay-Teymur Cuçi xanın əsas səkkiz arvadından doğulan süd qardaşları Orda-İçen, Batı, ►



Berke, Şiban və b. ilə birlikdə nəinki Dəşt-Qıpçaqda cuçilər dövlətinin yaranmasında, hətta ümumimperiya məsələlərinin həllində də fəal iştirak edir və hakimiyyətdə ən ali vəzifələrdən birini tuturdu, nəticədə onun törəmələri Qızıl Orda, Krım və Orta Asiyada hökmdarlıq taxtına yiyələnirlər. Müsəlmanlar onlara "xanedan-i Tuqaytimuriyan" ("Tuqayteymur sülaləsi") deyirdilər.

Beləliklə, çingizlilərin bütün oğulları, istər nikahlı arvadlarından, istərsə də kənizlərindən dünyaya gəlsinlər, hər biri fərq qoyulmadan qanuni övlad hesab edilirdi və doğum tarixlərinin ardıcıllığını gözləməklə vərəsəlik dərəcəsinə malik idilər.

Çingizxanın 4 oğlunun xususi status alması isə onunla izah olunur ki, Bortexatun ən çətin anlarında ərinin yanında olmuşdu. Onlar çiyin-çiyinə verib qanlı mübarizələrdən keçmişdilər, əsirlik, qaçqınlıq həyatı yaşamışdılar. Və 4 oğlun da hər biri ayrılıqda yorulmadan fəaliyyət göstərmiş, atalarına dayaq durmuşdular. 1240-cı ilə aid rəsmi moğol xronikasına əsasən, Yesugey bahadurun ölümündən sonra bütün dostları mərhumun ailəsindən üz döndərdiyi çağlarda kunqratlı Day-Seçen hədə-qorxulara, məzəmmətlərə məhəl qoymayaraq qızını Temuçjinə ərə vermişdi. Bu elə bir xeyirxah addım və istək idi ki, onu tənhalıqdan, meşə, çöllük həyatından qurtarmışdı, isti ocaq başına çəkmişdi.

Çingizxanın Baş arvadını ürəkdən sevib-sevmədiyi heç kimə bəlli deyil. Lakin 9 yaşından taleyini bağladığı insana böyük hörmət bəslədiyi hamıya gün kimi aydın idi. Mənbələrdə Borte xatunun müdrikliyi və tərbiyəçi rolunu yerinə yetirməsi xüsusi vurğulanır. O, həm də ərinin ən yaxın məsləhətçisi idi. Bortenin Çingizxandan 4 oğlu (Cuçi, Çaqatay, Ugedey, Tuluy) və 5 qızı doğulmuşdur.

F.Rəşidəddin bildirir ki, Çingizxanın başqa arvadlardan da 4 oğlu (Qulqan, Caur, Curçitay, Orçaqan) dünyaya gəlmişdi. Lakin sonuncu 3 oğlan murada çatmadan xəstələnib ölmüşdür. Onlar özlərindən sonra nəsil yetişdirməyə belə macal tapmamışdılar. Qulqan isə 1237-ci ilin payızında (digər mənbəyə görə, 1238-ci ilin yanvarında) moğolların rus knyazlığına hücumu zamanı Kolomnanın mühasirəsindəki döyüşdə aldığı ağır yaradan canını qurtara bilməmişdir. Lakin o, bu çağadək çoxsaylı arvadlarından olan 4 oğlunu ərsəyə çatdırmış, Çingizxan soyunun qol-budaq atmasında müəyyən rol oynamışdı. Atası onu da birinci 4 oğlunun mərtəbəsinə qaldırsa da, F.Rəşidəddinin fikrinə əsasən, xalq arasında elə təsəvvür formalaşmışdı ki, kunqratlı Borte xatunun 4 oğlu daha çox tanınmış və seçilib-sayılmışdır.

Nədənsə, Çingizxanın yüksək vergisi irsən oğlanlarının heç birinə keçməmişdi. Ancaq onların birinə də bacarıqsız, qabiliyyətsiz demək olmazdı. İşbilən, enerjili, görüb-götürən idilər. Onları "Cami at-tavarix" müəllifi daha düzgün xarakterizə edirdi: "Çingizxanın bu 4 oğlu ağıllı, vəzifələrini yerinə yetirən, kamil, mənlikli, cəsarətli və igid idi. Ona görə də atası, qoşun və xalq tərəfindən çox sevilirdilər. İmperiyanı qoruyub saxlayan dörd dayaq idilər. Çingizxan onların – "kuluk"larının hər biri üçün ayrıca dövlət hazırlamışdı".

***"Kuluk"*** o səxslərə, atlara, varlıqlara deyirdilər ki, hər cəhəti ilə başqalarından üstünlüyünü nümayış etdirir, həm döyüşdə, həm də dövlət işlərində ön sırada dayanırdı.

Xərəzmşah dövlətini diz çökdürəndən sonra (1219-1224) Çingizxan "dörd kuluk"a xüsusi torpaq - "yurd" ayırdı. Tarixi ədəbiyyatlarda onun bağışladığı geniş torpaqlar "udel", ya da "ulus" adı ilı təqdim olunur. Maraqlıdır ki, ulusların yaxın, yaxud uzaq məsafəyə düşməsini nüfuzlu oğlanlarının yaş fərqlərinə görə müəyyənləşdirirdi. Borte xatundan olan ən kiçik oğlu Tuluy üçün öz nəslinə mənsub Mərkəzi Monqolstan ərazisini və 129 minlik nizami ordusunun 101 min nəfərini ayırdı. Ancaq Tuluy öz vərəsəsinə atasının ölümündən sonra sahib durdu. Ölkədən qərbə doğru zəbt edilən geniş torpaqlar 3 böyük oğlanları arasında bölüşdürüldü. Belə ki, üçüncü oğlu Udeqeyə Qərbi Monqolstanla Tarbaqatay, ikinci oğlu Çaqataya Şərqi Türkstan, Semireçye, Maverannahr (iki çay - Amudərya və Sırdərya arası), böyük oğlu Cuçiyə İrtışdan qərbə doğru Şimali Xorezmdən, Qayalığın (Semireçyedə) sərhəddindən Volqa ətrafınadək uzanan yurdu (indiki Qazaxstan çöllüyünü) verdi.

Çin, ərəb mənbələrində, xüsusilə XIII yüzilliyin müəllifləri moğol-tatar əsarətini ətraflı və dolğun şəkildə təsvir edirlər.

Qəribədir ki, farsdilli səlnamələrdə çoxsaylı təhriflərə, dolaşıqlıqlara yol verilib. Məsələn, Cuzcani "Tabakat-i nasiri"də (1260-cı ildə Hindistanda tərtib edilmişdir) səhv olaraq bildirir ki,Tuşinin (əslində Cuçi olmalıdır) 4 oğlu vardı: böyüyünün adı Batı idi, ikincisi Çaqata (tak!), üçüncüsü Şiban, dördüncüsü isə Berke idi. İranlı Cuvayni də 1253-1260-cı ildə yazdığı "Tarix-i cahan quşay"da qeyri-dəqiq və yarımçıq məlumatları sadalayaraq yazır: "Tuşinin 7 oğlu vardı: Bamhal, Hordu, Batı, Şibaqan, Tunqut, Berke və Berkeçar". F.Rəşidəddin daha dəqiq məlumat verir: "Cuçi xanın 40-a yaxın oğlu və saysız-hesabsız nəvəsi vardı. Lakin onları mərkəzlə çox uzaq məsafə ayırdığından (Cuçi ulusunun iqamətgahı İranda yerləşiridi) bir adam tapılmamışdı ki, xanın törəmələrinin sayını dəqiq müəyyənləşdirsin". "Səlnamələr toplusu"nda yalnız Cuçinin 13 oğlunun davamçıları haqqında "yaddaş"a rast gəlirik. Topal Teymurun sarayında 1426-cı ildə tərtib olunan "Muizz al-ansab"da isə Cuçinin 18 oğlunun adı çəkilir. Çaqatayın 8, Yeqedeyin 7, Borte xatunun son beşiyi Tuluyun 10, Çingizxanın 5-ci oğlu Qulqanın isə merkit tayfasının hakiminin qızı Oulan xatundan 4 oğlu olmuşdur. Beləliklə, həyatının sonunda, 1227-ci ildə Çingizxanın kişi törəmələrinin ümumi sayı 100-105 nəfərə çatırdı. Onun böyük nəvələri 40-dan az, yeniyetmə nəticələri isə 60-dan az deyildi. Tarix göstərir ki, ***"altan uruq"*** ("qızıl soy") əsasən 4 oğulun yardımı ilə qol-budaq ataraq şaxələnmişdi. Çingizxanın qardaşlarından yalnız Hasarın (Coçi-Kasar şəklində də qeydə alınıb) törəmələrinin "qobequn" (xanzadə) titulu daşımaq hüququ vardı, qalanların adları əyanlar sırasında çəkilirdi. Bir məlum hadisə var ki, 1336-cı ildə Təbəristanda (Xəzər dənizinin cənub sahillərində yerləşən əyalət) Hasarın nəticəsi Toqa-Teymur taxta çıxarılıb. Bu barədə Həmdullah Qəzvini "Mucmal-i Fəsihi" əsərində məlumat verir. Nədənsə, Monqolstanın özündə belə Hasarın davamçılarına rəğbət bəsləmirdilər.

Altan uruqa paralel olaraq çingizlilərin 4 qolunun hər biri ayrılıqda yeni nəsil şəcərəsi yaratmışdı. Cuçilər sülaləsi Qızıl Ordada, çaqataylar sülaləsi Orta Asiya və Şərqi Türküstanda, hulaidlər sülaləsi İranda, Yuan sülaləsi Monqolstan və Çində uzun zaman hakimlik etmişdilər. Sonuncuların sahzadələrinə Çin dilindən götürülmüş ***"tayci"*** deyirdilər. Çingizlilər evinin qərb uluslarında isə nəslin davamçılarına aid titullar başqa şəkildə səslənirdi. XIII və XIV əsrin əvvəllərində yaranan müsəlman səlnamələrində ilk çingizlilər ***"şahzadə", "padşahzadə"***, ya da sadəcə ***"pesar"*** (fars sözüdür, hərfi mənası "oğul" deməkdir) adlanırdılar. Cuçilərin, çaqatayların, hulaidlərin 3-cü, 4-cü və sonrakı nəsillərinin şahzadələrinin adlarına isə ***"oğul"*** və ***"oğlu"*** türk sözünü əlavə edirdilər. XIV yüzildən sonra ***"sultan"*** kəlməsi bütün deyimləri sıxışdırıb aradan çıxarmışdır.

Xan nəslinin nümayəndələrinə pis əməllərinə görə xanzadələrin ümumi yığıncağı cəza verirdi, çingizlilərlə bağlı hər hansı bir hökmü isə yalnız xan özü, ya da nəslin ağsaqqalı icra etdirirdi. Çingizlilər maddi vəziyyətindən, əqli və fiziki keyfiyyətindən asılı olmayaraq öz hüquq və üstünlüklərini doğuşla qazanırdılar. Bir sözlə, ali mənsəbə çatmaq üçün bu ailədə dünyaya gəlmək kifayət idi.

"Qızıl nəsil"də qadın xətti əhəmiyyət kəsb etmirdi. Təkcə xan qızlarını alanlara ***"qurqan"*** (xan nəslinin kürəkəni) titulu verilirdi.

## "BÖYÜK YASA"NIN QANUNLARI

**"Kimsə özündən sonra yaxşı ənənə qoyursa, onu qorumaq lazımdır. Ata düzgün qanun çıxarıbsa, saxlanmalıdır, əksinə - onun qaydaları pisdirsə, yaxşısı ilə əvəz edilməlidir".**

*Babur. "Baburnamə".*

Çingizlilər imperiyada qapalı ali aristokrat şəraiti yaratmışdılar, hakim sülalə olaraq hüquqi vəziyyətləri ilə ölkənin ümumi əhalisindən tamamilə seçilirdilər. Xanlıq haqqını "qızıl nəslin" nümayəndələri həmişə qoruyub saxlamış, bu halı dövlətin təbii atributuna çevirmişdilər. "And" ancaq onlardan qəbul olunurdu. Eləcə də təkcə "qızıl nəslin" nümayəndələrinin Çingizxanın hökmdar xəzinəsində saxlanılan ***"Böyük Yasa"***sına (qanun və əmrlər toplusu) və ***"Altan-dəftər"***ə (çingizlilərin xan nəslinin rəsmi tarixi "Qızıl dəftər" adlanırdı) əl vurmaq ixtiyarı vardı.

"Yasa" (türk sözüdür, tam şəkli "yasaq"dır, moğolcaya keçəndə "casaq" olub) "qərar", "qanun" deməkdir, dövlətin əsas qanunlar toplusu idi. Ehtimal edilir ki, ilk dəfə 1206-cı ildə qurultayda qəbul edilmiş, 1218-ci ildə növbəti qurultayda yenidən baxılaraq düzəlişlər edilmiş, onun son "redaksiyası" 1225-ci ildə yerinə yetirilmişdir. Cuvayni və misirli yazıçı Markizi (1441/42-ci ildə ölmüşdür) "Baş Yasa" barədə daha tutarlı məlumatlar vermişlər. Cuvayniyə görə, Çingizxanın "Yasa"sı uyğur yazısı ilə ***"tumar"*** *(lülə şəklində bükülmüş kağızdır. Moğollar kağızı sonralar Avropaya gətirmişdilər)* üzərində yazılmış və "Yasa-name-i buzurq" ("Böyük Yasa kitabı") adlandırılmışdır. Lülələnmiş tumarları qanunları ən yaxşı bilən çox nüfuzlu xanzadə qoruyurdu. Yeni xan seçiləndə, ordu döyüşlərə yola düşəndə, xanzadələrin yığıncağı çağırılanda dövlət məsələlərinin müzakirəsi və həlli məqsədilə "Yasa" iqamətgaha gətirilir, orada yazılan qanunlar əsasında qərar çıxarılırdı.

Təəssüflər olsun ki, "Böyük Yasa" və "Altan-dəftər" bu günlərə tam halda gəlib çatmamışdır. A.Cuvayni, F.Rəşidəddin, İoahh de Plano Karpini, Vassaf, İbn Battut, Qriqori Əbu-l-Fərəc, Markizi və b. səlnamələrində, xronikalarında onun barəsində bəzi xatırlatmalara, söyləmələrə rast gəlirik.

Çingizxanın qərarlarına imperiyanın bütün sakinləri ilə yanaşı, xanlar özləri də sözsüz riayət etməli idilər. Lakin "Yasa"nı adi adamlar da, Çingizlilər də pozmaq məcburiyyətində qalırdılar. Ona görə ki, qanunlar təkcə köçəri həyat tərzinin normalarını tənzimləyirdi. Moğol-tatarların əsarət altına aldığı ölkələrin əksəriyyəti, o cümlədən Orta Asiya, Cənubi Qafqaz və İranda ta qədimdən sınanmış hüquq ənənələri formalaşmışdı. Hər üç bölgədə oturaq həyat vardı. Əhali islam inancına inanırdı. Rusiyada isə xristianlıq hökm sürürdü. Köçəri tayfa və qəbilə birləşmələrinin məişət tərzinə, əxlaqına, samançılıq inancına əsaslanan normalar onlar üçün uyğunsuzluq yaradırdı, qəbuledilməz sayılırdı. Bu zəmində "Yasa" nəzarətçiləri ilə yerli əhali arasında qarşıdurma yaranır və ikincilərin faciəsi ilə nəticələnirdi. Cuvayni "Yasa"nin baş nəzarətçisi Çaqatayın atdığı addımlar barədə yazırdı: "Öz ətrafını və rəiyyətini cüzi qanun pozuntusuna görə ağır cəzalandıraraq "Yasa"nın qorxusu altında saxlayırdı. Onun hakimiyyətində ordusunun yaxınlığından keçən hər kəs nə avanqarda, nə də mühafizə dəstəsinə ehtiyac duyurdu. Obrazlı desək, hətta hər hansı bir qadın başına qızıl dolu qab qoyub, qorxmadan təkbaşına küçələrdən keçib gedirdi. Çaqatayın yaydığı kiçik əmrlər müsəlman əhali üçün qəbuledilməz idi. Məsələn, ətindən istifadə etmək üçün mal-qaranı kəsməyin, yaxud səhər axar suya girməyin. O, bütün əyalətə car çəkdirmişdi ki, qoyunun qanı tökülməməlidir. Xorasanda heç kimin açıq şəkildə mal-qara kəsməyə cəsarəti çatmırdı. Müsəlmanlar cəmdək yemək məcburiyyətində qalmışdılar". İmperiyanın tarixçisi Rəşidəddin də insanın xırda hərəkətinə, hətta sadəcə olaraq laqeydlik göstərməsinə görə ağır ►













cəzalandırılmasına, belə hallarda ölüm hökmünün çıxarılmasına qarşı etirazını bildirirdi.

Əslində "Yasa" çingizlilər nəsli üçün tərbiyə məktəbi idi. Hökmdarın tərtib etdiyi qanunlara görə, despotik qərarlar elə hallara tətbiq edilməli idi ki, kiminsə əməlləri dövlətin sütunlarının qırılmasına gətirib çıxsın. Sadəcə olaraq bəzən ucqarlarda "Yasa"nı bayağılaşdırır, daha doğrusu, hakimlər qanunlardan öz iradə və məqsədlərinə uyğun şəkildə istifadə edirdilər. Mənbələrdə göstərilir ki, Çingizxan buyururdu: "Əgər bizim uruqda kimsə "Yasa"nı birinci dəfə pozursa, qoy onu sözlə məzəmmət etsinlər. Əgər o, qanunlara ikinci dəfə tabe olmursa, qoy onu "Bilik" əsasında cəzalandırsınlar. Üçüncü dəfə qanmazlıq etdirsə, qoy onu ən uzaq əraziyə - Balcin-Qulcura göndərsinlər. O, həmin yerdə bir müddət yaşayıb geri qayıdandan sonra ağıllanacaq. Bu dəfə də düzəlməsə, onda onu qandallayıb qaranlıq zirzəmiyə salsınlar. Əgər o, təzədən işığa çıxanda "ədəb"i (davranış qaydalarını) mənimsədi, bu, çox yaxşı haldır. Yox, yenə tərslik etsə, qoy onda onun yaxın-uzaq qohumları toplaşsınlar, şura yaratsınlar və qanmazla necə rəftar etmək barədə qərar çıxarsınlar".

Adama elə gəlir ki, bu maddə müasir dünyanın ən mədəni, demokratik ölkəsinin Konstitusiyasından götürülmüşdür. Qanunları dəfələrlə pozana qarşı indinin özündə dövlət orqanları bu qədər səbir və diqqət nümyiş etdirmirlər.

Onu da vurğulayaq ki, imperiyada hərbi aristokratlar arasında çoxsaylı insanlar vardı ki, onlara hansı nəslə mənsubluğundan asılı olmayaraq, Çingizxan və ondan sonrakı xanlar yüksək titullar, mükafatlar və imtiyazlar verirdilər. Belələrini "tarxan" adlandırırdılar. Cuvayniyə görə, tarxanlar bir sıra üstünlüyə malik idilər. 1) onlar bütün vergilərdən azad idilər; 2) müharibədə əldə etdikləri sərvətlər və ovda topladıqları onların xüsusi mülkiyyəti sayılırdı; 3) hər dəfə saraya icazəsiz girə bilirdilər; 4) ancaq 9-cu dəfə cinayət törədəndə (elə cinayətlər ki, ölümlə nəticələnirdi) cəzalandırılırdılar; 5) imperator ziyafətlərində fəxri yerləri tutur və bir qədəh şəraba qonaq edilirdilər.

Zaman axarında çingizlilər və imperiyanın qərbi uluslarının hərbi-köçəri aristokratiyası müsəlman dövlətçilik və mədəniyyət ənənələrinə alışdılar, islam dinini qəbul etdilər, yavaş-yavaş "Yasa" qadağalarından əl çəkdilər.

Həmdullah Qəzvininin sözlərinə görə, "Çingizxanın "Yasa"sına zidd olduğundan əvvəllər moğolların şəhərlərdə məskunlaşmaq adəti yox idi". Əslində isə məhz "Yasa"nın bu tələbi çingizlilərin özləri tərəfindən, Çaqatay, Cuçi və Hulaqu uluslarında tez-tez pozulurdu. Bu da təbii idi. Axı üç qardaşın hökmdarlıq etdiyi diyarlarda möhtəşəm qalalar, saraylar salınmışdı. Onları dağıdıb yerində çadırlar, alaçıqlar qurmaq, ya da bər-bəzəkli imarətlərin yanında öz adətləri üzrə balaca dədə-baba yurdları salıb vilayəti idarə etmək mümkün deyildi.

Teymurun qurduğu dövlətdə (1370-1405) Çingizxanın adına bağlanan qanun və hüquq toplusu "Tura" (qədim türk sözü "törə"nin təhrif olunmuş variantıdır) adlanırdı. Teymurilərin "Yasa"ya münasibətini Hindistandakı Moğol dövlətinin hökmdarı Baburun yazdıqları əsasında aydınlaşdırmaq mümkündür: "Əvvəllər bizim atalarımız Çingizxanın qərarlarına ("Tura"ya) ciddi şəkildə əməl edirdilər. Toplantılarda, divan zamanı, toylarda, yemək yeyəndə və oturub-duranda da "Tura"dan kənar heç bir hərəkətə yol verilməzdi. Çingizxanın qərarları tanrı buyuruğu tək elə dəyişilməz və müqəddəs idi ki, insan mütləq əməl etməliydi. Kimsə özündən sonra yaxşı ənənə qoyursa, onu qorumaq lazımdır. Ata düzgün qanun çaxarıbsa, saxlanmalıdır, əksinə - onun qaydaları pisdirsə, yaxşısı ilə əvəz edilməlidir".

Monqol-tatarlar çinlilərin bir ənənəsini özlərinə götürmüşdülər. Xanların çıxışlarını yazı yaddaşına köçürüb ölümündən sonra toplu halına sallaraq kitab hazırlayırdılar. Çingizxanın bir neçə nitqini əks etdirən kitab türk sözü ilə adlanırdı: "Bilik". F.Rəşidəddin əsərinin "Çingizxanın adətləri və xüsusiyyətləri" bölməsində "Bilik"dən maraqlı misallar gətirmişdir.

***Çingizxanın xoşbəxtliyi onda idi ki, hələ ümumdüşüncəsi və vahid qayda-qanunları olmayan xalqlar ona inanıb, arxasınca düşürdü. O da yarımvəhşi köçəriləri, dini əqidəsi, dili, adət-ənənəsi, əxlaq normaları tamamilə bir-birindən fərqlənən, hətta biri digərinə ziddiyyət təşkil edən milyonlarla kütləni uzaq-yaxın məsafələrdə məskunlaşmalarına baxmayaraq nizamlayıb çox yüksəklərə, fətt edilməsi yuxulara girməyən, xəyala gəlməyən yerlərə aparmışdı. Kimlər müdrik və cəsur idilər, onları ordunun əmirləri rütbəsinə çatdırmış, kimlər zirək, cəld və çevik idilər, onları ilxıların rəisləri qoymuşdu. Kimlər avam, qanmaz, qabiliyyətsiz idilər, onların əllərinə oraq, bel, yava verib ot biçininə göndərmişdi.***

***Bir vaxtlar Yesuqey batırın yetimlərinə əl tutan tapılmamışdı. Yaxınları uşaqların son tikələrini qapmışdılar. Temuçjin iradəsi, mətinliyi ilə nəinki mal-mülkü talanmış ailəsini imtiyaza çatdırmışdı, bütün Çöllük xalqlarını ətrafına toplayıb "el gücünün sel gücü" olduğunu sübuta yetirmişdi. Onları aşağılayanları diz çökdürüb qul vəziyyətinə salmış, nəslinin, xalqının şöhrətini bütün dünyaya yaymışdı. Hərbi qüdrəti və qeyri-adi ağlı ilə bir-birinin ardınca düşmənlərini enmişdi, qələbəni qələbəyə calamışdı. Əvəzsiz şücaətlər göstərdiyinə görə nəsli və tayfası onu iki dəfə 1189-cu ilin astanasında və 1206-cı ildə "Böyük xan" elan etmiş və "Çingizxan" tituluna yüksəltmişdi. Bu ləqəb onun atadanqalma şəxsi adını tamamilə arxa plana keçirmişdi.***

***Əksər şərqşünasların qənaətinə görə, "çingiz" titulu türk kəlməsi "tengiz"in ("dəniz", yaxud "ümman" deməkdir) latınlaşdırılmış formasıdır. "Tengiz-xan" ("Çingizxan") birliyi isə hərfi mənada "okean-xan" kimi anlaşılır. Əslində "dünyanın sahibkarı" – "dünya xanı" mənasında işlədilir.***

***Çingizxan təkcə şəxsi hünəri, igidliyi və iti ağlı ilə deyil, həm də güclü xarakteri, daim mədsədə çatması üçün mübarizə aparması, bir yerdə qərarlaşa bilməməsi, tutduğu yerlə kifayətlənməməsi, daha yüksəklərə doğru can atması, arxayınlaşmaması, qətiyyəti, bağışlamağı bacarması, lazım gələndə sonsuz qəddarlıq göstərməsi, yersiz qurbanlara yol verməməsi ilə zamanının və sonrakı çağların bütün dövlət xadimlərindən fərqlənirdi. 1206-cı ildə moğolların xanı olandan sonra öz istedad və bacarığından xaricdəki rəqiblərinə qarşı yürüşlərdə istifadə etdi. Hər döyüşü qələbə ilə başa çatdıran Çingizxan 1224-cü ildə hakimiyyətinin sərhədlərini Çindən Orta Asiyayadək uzatdı.***

***...Hələ qarşıda Orta Asiya, Əfqanıstan, İran, Azərbaycan, Qafqaz, Rusiya, Şərqi Avropa dururdu. Böyük xanın söylədiklərini şəxsi katibi "Bilik" kitabının ağ vərəqlərinə köçürürdü.***

***Çingizxan belə deyirdi:***

***"Biz ova çıxırıq və çoxlu maral öldürürük. Biz yürüşlərə gedirik və saysız-hesabsız düşmən qırırıq. Yolumuzu ulu Tanrı göstərdiyindən hər iki işi asanlıqla yerinə yetiririk. İnsanlar bunu unutduqlarından əməllərimizdə başqa şeylər görürlər".***

***(Ardı var)*** ■